Xalqın qəzeti!

# Xalq qəzeti

№ 147 (30841) 19 iyul 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Hər kəndin, hər şəhərin dönür cənnətə, Qarabağ!

## Prezident İlham Əliyevin Ağdama və Xocalıya səfəri

## Ağdam Sənaye Parkında tütün məmulatlarının istehsalı müəssisəsinin açılışı olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də "Tabaterra" MMC-nin Ağdam Sənaye Parkındakı tütün məmulatlarının istehsalı müəssisəsinin açılışında iştirak edib.**




Əvvəlcə iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Ağdam Sənaye Parkı haqqında məlumat verdi.

Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli Fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Ağdam rayonunda 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Parkın yaradılmasından məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Bunun nəticəsidir ki, Ağdam Sənaye Parkı rezidentlərinin sayına görə ölkəmizdə mövcud sənaye zonaları arasında Sumqayıt Kimya Sənaye Parkından sonra ikinci sənaye parkıdır. Parkda ümumi investisiyalarının həcmi 270 milyon manatdan çox olan 30 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 121 milyon manatdan çox investisiya yatırılıb, 650-dən artıq daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Ağdam Sənaye Parkının ərazisinin 70 faizdən çoxu artıq sahibkarların istifadəsinə verilib. "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsinin açılması ilə Parkda fəaliyyət göstərən müəssisələrin sayı 10-a çatıb.

**(ardı 2-ci səhifədə)**

**Ermənistan hakimiyyəti ilə Erməni Apostol Kilsəsi (EAK) arasında may ayının sonlarından etibarən açıq müstəviyə keçən qarşıdurma davam edir. Qarşıdurmanın kökündə həm siyasi, həm də ideoloji ziddiyyətlər dayanır. Hakimiyyət kilsəni siyasi müxalifətin, xüsusilə revanşist kəsimi təmsil edən Qarabağ klanının təsiri altında, yaxud onlarla əlbir olmaqda və ictimai rəyi yanlış yönləndirməyə çalışmaqda ittiham edir. Kilsə isə hökumətin ənənəvi dəyərləri sarsıtdığını və xalqın mənəvi dayaqlarını zəiflətmək istədiyini bildirir.**

# Xaç kölgəsində siyasi oyunlar

*Paşinyan hakimiyyəti Eçmiədzini parçalamaq üçün alternativ katolikos planı hazırlayır?*



Xüsusilə, Azərbaycanla sülh və dövlətlərarası sazişin imzalanması, Zəngəzur dəhlizinin açılması, Türkiyə ilə münasibətlərin normallaşması məsələsində EAK-ın mövqeyi hakimiyyətlə ziddiyyət təşkil edir və bu, gərginliyi daha da artırır. Tərəflərin barışmaz münasibətləri Ermənistanda dərin ictimai parçalanmaya səbəb olub.

*(ardı 5-ci səhifədə)*

# Diplomatiyamızın uğur tablosu



## *Azərbaycanın qlobal səhnədə mövqeləri daha da güclənir*

**Son ayyarım ərzində Azərbaycanın altı beynəlxalq təşkilat seçkisində ardıcıl şəkildə qələbə qazanması ölkənin qlobal sistemdə artan nüfuzunun, diplomatik çevikliyinin və strateji baxışının nəticəsidir. Qlobal siyasətin getdikcə daha çox parçalandığı, beynəlxalq sistemin qeyri-müəyyənliklərlə dolu olduğu bir dövrdə Azərbaycan özünü sabitlik, konstruktiv əməkdaşlıq və rasional siyasət modeli kimi təqdim etməyi bacarıb.**

Seçkilərdə qazanılan qələbələr Azərbaycanın milli güc arxitekturasının – iqtisadi sabitlik, sosial rifah, humanitar siyasət və mədəni irsə verilən dəyərin mükafatı kimi oxunmalıdır. Azərbaycanın Xarici İşlər Nazirliyinin də vurğuladığı kimi, bu uğurlar balanslı xarici siyasətin, qlobal təşəbbüslərə real töhfələrin və milli diplomatiyanın çevik fəaliyyətinin nəticəsidir.

*(ardı 6-cı səhifədə)*

## Azərbaycanın bölgədə yeni "qırmızı xətlər"i



səhifə ⇨ 5

## "Terrorsuz Türkiyə" amili: region və Azərbaycan

*Prezident İlham Əliyevin məktubuna sözardı*

**Prezident İlham Əliyevin türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana 2016-cı ilin 15 iyul tarixində Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəhid olmuş şəxslərlə bağlı üç gün əvvəlki başsağlığı məktubunda maraqlı məqamlar yer alır. Yazımız bu barədədir.**



Ondan başlayaq ki, qardaş ölkədə 2016-cı ildə yaşanmış dövlət çevrilişinə cəhd mahiyyətcə siyasi terror idi. Türkiyənin tarixində belə olayların sayı kifayət qədər çoxdur. Dövlət çevrilişləri nəticəsində nazirlərin, baş nazirlərin edam kürsüsündə dayandığına dair səhnələr də həmçinin. Heç şübhəsiz, belə təmayüllər dövləti və dövlətçiliyi sarsıdır, inkişafı əngəlləyirdi. Hesab edirik ki, cənab Ərdoğanın tarixi xidmətlərindən biri bu sayaq mənfi təmayüllərin qarşısını alması, qardaş ölkəni tərəqqiyə daşımasıdır.

Dövlətimizin başçısı da məktubunda haqqında söz açdığımız məqama əhatəli şəkildə toxunub: "Türkiyə dövlətinə qarşı yönəlmiş bu məkrli planın önlənməsi Sizin liderliyiniz, böyük fədakarlığınız və xalqınızın Sizin ətrafınızda sıx birləşməsi sayəsində mümkün olmuşdur. Qardaş ölkəniz bu ağır sınaqdan da üzüağ, alnıaçıq və daha da güclənmiş çıxaraq bütün dünyaya öz qüdrətini bir daha sübut etdi".

*(ardı 6-cı səhifədə)*

## Çinə də vizasız gedirik



səhifə ⇨ 7

## Sahibkarların sənaye zonalarına marağı artır



səhifə ⇨ 8

## "Əkinçi"nin milli gerilik və erməni millətçiliyi ilə mübarizəsi



səhifə ⇨ 9

# Ağdam Sənaye Parkında tütün istehsalı müəssisəsinin açılışı



(əvvəli 1-ci səhifədə)




Qeyd edək ki, hazırda ölkədə 9 sənaye parkı var. Bunlar Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Naxçıvan, Hacıqabul, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarıdır. Bununla yanaşı, Masallı, Neftçala, Sabirabad və Şərurda 4 sənaye məhəlləsi yaradılıb.

Sonra "Tabaterra" MMC-nin direktoru Elman Cavanşir dövlətimizin başçısına müəssisə barədə məlumat verdi.

Bildirildi ki, Ağdam Sənaye Parkında 5,5 hektar ərazidə "Tabaterra" MMC-nin tütün məmulatlarının istehsalı müəssisəsi yaradılıb. Layihəyə 58 milyon manat investisiya yatırılıb. "Tabaterra" MMC öz məhsulları ilə yanaşı, "British American Tobacco", "Japan Tobacco International" və "Imperial Brands" şirkətlərinə məxsus beynəlxalq brendləri lisenziya əsasında istehsal edir. MMC-də 20-dən çox brend üzrə 120-dən artıq çeşiddə tütün məmulatı istehsal olunur. Almaniya, İtaliya və Böyük Britaniyanın qabaqcıl texnologiyalarının tətbiq edildiyi müəssisədə 9 istehsal xətti mövcuddur. İstehsal olunan məhsullar Birləşmiş Ərəb Əmirliklərinə, Gürcüstana, Özbəkistana və İraqa ixrac edilir. Hazırda "Tabaterra" MMC həm yerli, həm də "British American Tobacco" və "Japan Tobacco International" şirkətlərinə məxsus xarici brendlərin ixracını həyata keçirir.

Müəssisə sənaye parkının rezidenti kimi vergi, gömrük və digər güzəştlərdən faydalanır. Hazırda burada 400 nəfər çalışır. Şirkət 300-dək işçinin Ağdam şəhərinə köçürülməsini nəzərə alaraq, onların yaşayış təminatını qarşılamaq üçün "Ağdam Residence" yaşayış kompleksində 208 mənzilin alınmasına sərmayə yatırıb və əməkdaşların işlədiyi dövr ərzində ödənişsiz olaraq onların istifadəsinə verib.

Keçən ilin nəticələrinə görə, "Tabaterra" MMC qeyri-neft və özəl sektor üzrə qabaqcıl ixracatçı, eyni zamanda, qeyri-neft sektorunda ən iri vergi ödəyicisi olub.

Tütün əkininin və emalının həyata keçirilməsi məqsədilə təsis edilmiş "Tabaterra Leaf" MMC 2021-ci ildə "Azərtütün" ASC-nin özəlləşdirilməsinə dair investisiya müsabiqəsinin qalibi olub və infrastrukturun modernləşdirilməsi, yerli tütünün keyfiyyətinin artırılması məqsədilə 15 milyon manat məbləğində sərmayə yatırıb. "Tabaterra Leaf" MMC hazırda Şəki, Qax, Zaqatala, Balakən rayonlarının ərazisində tütün əkini və emalı ilə məşğul olur. Şirkətin tərkibində tütün qəbulu və emalı məntəqələri, istixanalar və illik istehsal gücü 3 min ton olan Tütün Emalı Zavodu mövcuddur. "Tabaterra Leaf" MMC tərəfindən 2027-ci ildən başlayaraq Qubadlı rayonunda 500 hektar ərazidə tütün əkini və emalı ilə əlaqədar lazımi infrastrukturun qurulması üçün əlavə investisiya yatırılması nəzərdə tutulur. "Tabaterra" MMC-nin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi layihələr iqtisadi fəallığın artırılmasına, sənayenin və kənd təsərrüfatının inkişafına, regionun ixrac potensialının artırılmasına, məşğulluğun təmin olunmasına töhfə verir. Bu layihələrin ümumi investisiya dəyəri 79 milyon manat təşkil edir.

# İraq Respublikasının Prezidenti Zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

**Hörmətli cənab Prezident!**

Əl-Küt şəhərində yerləşən ticarət mərkəzində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İraq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 18 iyul 2025-ci il**

# ASOSAI və ARABOSAI təşkilatlarının Birgə Toplantısının iştirakçılarına

**Hörmətli Toplantı iştirakçıları!**

Sizi – Ali Audit Orqanlarının Asiya Təşkilatına (ASOSAI) və Ali Audit Orqanlarının Ərəb Təşkilatına (ARABOSAI) üzv olan ali audit orqanlarının Azərbaycan Respublikası Hesablama Palatasının ev sahibliyi ilə Bakıda keçirilən Birgə Toplantısının bütün iştirakçılarını səmimi-qəlbdən salamlayır, Toplantının öz işinə başlaması münasibətilə təbrik edir və uğurlar arzulayıram.

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 2011-ci ildə qəbul edilmiş "Ali audit orqanlarının gücləndirilməsi vasitəsilə dövlət idarəçiliyinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının artırılması haqqında" və 2014-cü ildə qəbul edilmiş "Ali audit orqanları vasitəsilə dövlət idarəetməsinin səmərəliliyinin, cavabdehliyinin, effektivliyinin və şəffaflığının inkişaf etdirilməsi və gücləndirilməsi haqqında" qətnamələri dünya ictimaiyyətinin ali audit orqanlarına inamının artmasında və ictimai resurslardan səmərəli istifadə baxımından onların rolunun daha da yüksəldilməsində mühüm əhəmiyyətə malikdir.

Toplantıda ASOSAI və ARABOSAI təşkilatlarına üzv olan əksər ali audit orqanlarının rəhbərlər səviyyəsində təmsil olunması, həmçinin Ali Audit Orqanları Beynəlxalq Təşkilatının (INTOSAI) Prezidentlik və Baş Katiblik təmsilçilərinin iştirak etməsi tədbirin yüksək statusunu göstərir.

Belə bir tədbirin ölkəmizdə keçirilməsini dövlət vəsaitlərinin istifadəsi zamanı səmərəliliyin, hesabatlılığın, nəticəliliyin və şəffaflığın artırılmasında Azərbaycanın ali audit orqanının fəaliyyətinin gücləndirilməsi üçün nümayiş etdirdiyimiz səylərin dəstəklənməsi kimi dəyərləndirirəm.

Bu gün iqtisadi, sosial və ekoloji tarazlığa nail olmaq üçün yeni mexanizmlərin tətbiqini, yerli və qlobal maraqların uzlaşdırılmasını, təbii resurslardan səmərəli istifadəni özündə ehtiva edən dayanıqlı inkişaf başəri önəm kəsb edir. Həmin çağırışlara effektiv və çevik reaksiya verilməsi qarşımızda məsuliyyət müəyyənləşdirməklə, maliyyə imkanlarının səfərbər olunmasını, onların qorunub saxlanılmasını, həmin resurslardan məqsədyönlü, qənaətli və səmərəli istifadə üçün nizam-intizamın möhkəmləndirilməsini, dövlət auditi institutlarının daha təkmil olmasını zəruri edir.

Bu baxımdan, dayanıqlı inkişaf və rəqəmsal iqtisadiyyata keçid şəraitində Toplantının hər iki mövzusu üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi ilə bağlı müzakirəni təqdirəlayiq hesab edirəm. Belə ki, iqtisadi və sosial inkişafda və qlobal rəqabət mühitində üstünlüklərin əldə edilməsində süni intellekt texnologiyalarının inkişafı vacib rol oynayır. Süni intellekt dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirir. Süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlığın, elmi tədqiqatların gücləndirilməsi, innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilməlidir. Hesab edirəm ki, süni intellektin dövlət auditində tətbiqi auditin müstəqil nəzarət institutu kimi daha da inkişaf etməsinə və audit xidmətlərinin dayanıqlı inkişafına öz töhfəsini verəcək, bu sahədə mütərəqqi dünya təcrübəsinin öyrənilməsinə və tətbiqinə geniş imkanlar yaradacaqdır.

Toplantının ikinci mövzusu da olduqca əhəmiyyətlidir. İqlim dəyişikliklərinin təsirlərinin azaldılması və bu təsirlərə uyğunlaşmaq üçün fəaliyyətin davamlı olması böyük maliyyə vəsaiti tələb edir. Həmin vəsaitlərdən məqsədyönlü istifadənin, eləcə də şəffaflıq və hesabatlılığın təmin edilməsində isə ali audit orqanlarının iştirakı vacibdir. Azərbaycanın bu mövzu üzrə fəaliyyətlər dəstək verməsi ötən il ölkəmizdə keçirilmiş mötəbər tədbirin – COP29-un timsalında bir daha təsdiq edilmiş oldu.

İnanıram ki, Toplantı iştirakçıları öz ölkələrində qazandıqları müsbət təcrübəyə arxalanaraq və ali audit orqanları arasında işgüzar əlaqələri gücləndirərək, ASOSAI və ARABOSAI təşkilatları arasındakı münasibətlərin daha yüksək səviyyədə bərqərar olmasına, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qətnamələrinin həyata keçirilməsinə nail olacaq və bütövlükdə dövlət auditi orqanlarının gələcək inkişafına dəyərli töhfələr bəxş edəcəklər.

Bir daha sizə xoş arzularımı yetirir və Toplantının işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyul 2025-ci il**

# Prezident İlham Əliyev Ağdam şəhərində orta məktəb binasının açılışında




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də 960 şagird yerlik Ağdam şəhər 1 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib.**



Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Qeyd edək ki, bu təhsil ocağının təməli 2021-ci il mayın 28-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Bu ilin fevralında isə dövlətimizin başçısı və birinci xanım Mehriban Əliyeva burada aparılan tikinti işləri ilə tanış olublar.

Məktəbin binası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində inşa edilib. Binada 43 sinif, 16 inzibati otaq, 7 otaqdan ibarət STEAM adlandırılan elm, texnologiya, mühəndislik, sənət və riyaziyyat mərkəzi, müasir texnoloji avadanlıqla təchiz edilmiş fizika, kimya və biologiya laboratoriyaları, informatika və çağırışaqədərki hazırlıq otaqları, kitabxana, muzey, 352 yerlik yeməkxana fəaliyyət göstərəcək. Bundan başqa, məktəbdə müxtəlif tədbirlərin keçirilməsi üçün 468 yerlik akt zalı və iki qapalı idman zalı, açıq havada futbol və basketbol meydançaları da müəllim və şagirdlərin ixtiyarına verilib.

Bu gün Qarabağda təhsil sahəsində müasir tələblərə cavab verən maddi-texniki bazanın yaradılması ən önəmli məsələlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilən ərazilərimizdə hazırda təhsil infrastrukturunun bərpası və bu sahənin inkişafı istiqamətində çox mühüm işlər görülür. İstifadəyə verilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir.

# Ağdamda körpələr evi-uşaq bağçası istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam şəhərində 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.**

Bu binanın da inşası "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində həyata keçirilib. Körpələr evi-uşaq bağçası binasının inşasına ötən ilin fevralında başlanılıb.

Bu ilin fevralında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva binanın tikintisində işlərin gedişi ilə tanış olublar.

Məktəbəqədər təhsil müəssisinin binasında balacaların rahatlığının təmin olunması, həmçinin təlim-tərbiyə prosesinin yüksək səviyyədə aparılması üçün zəruri şərait yaradılıb. Binada oyun və yataq otaqları, musiqi, rəqs və idman zalları var.

İşğaldan azad olunmuş torpaqlarımızda əhalinin məskunlaşması ilə yanaşı, məktəbəqədər tərbiyə müəssisələrinin inşası istiqamətində ardıcıl işlər görülür. Belə layihələr, eyni zamanda, bu ərazilərdə icra edilən bərpa-quruculuq işlərinin tərkib hissəsi olmaqla da mühüm əhəmiyyət daşıyır.



# Prezident İlham Əliyev Ağdamın Qiyaslı kəndində məscidin açılışında





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 18-də Ağdam rayonunun Qiyaslı kəndindəki tarixi məscidin binasının bərpadan sonra açılışında iştirak edib.**

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Xatırladaq ki, 2021-ci il mayın 28-də Prezident İlham Əliyev Ağdama səfəri çərçivəsində Qiyaslı məscidində olub.

Qeyd edək ki, Qiyaslı məscidi də Qarabağda erməni vandalizminə məruz qalan tarixi-dini abidələrimizdən idi. Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı mal-qara tövləsi kimi istifadə edilən məscid binası ciddi dağıntılara məruz qalıb, dam örtüyü və günbəzlər tamamilə dağıdılıb.

Ağdam rayonu erməni işğalından azad edildikdən sonra 2022-ci ildən Qiyaslı məscidində bərpa işlərinə başlanılıb. Məscidin bərpası işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb. Bərpa layihəsi hazırlanarkən məscidin ilkin görkəmini qorumaq məqsədilə arxiv materiallarından və videoqrafik mənbələrdən istifadə olunub. İnteryerində mühafizə olunmuş burma pilləkən məscidin cənub tərəfində qoşa minarələrin mövcud olduğunu göstərirdi. Bu səbəbdən ənənəyə əsaslanaraq məscidin cənub divarında minarələr inşa edilib. Əyilmiş daş sütunlar xüsusi qurğular vasitəsilə bərpa olunub, daş tağlar və günbəzlər yenidən qurulub. Divarlarda ilkin görkəmini itirmiş və əsasən tökülmüş suvaq təmir olunub, yararsız hala düşmüş mehrab bərpa edilib. Fasad daşları xüsusi kimyəvi maddələrlə yuyulub, köhnə daşlar arasındakı tikişlər təmizlənib. Məscidin ətrafında köməkçi tikililər inşa olunub. Qiyaslı məscidi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2001-ci ildən yerli əhəmiyyətli daşınmaz tarixi və mədəniyyət abidələri siyahısındadır.

# Dövlət başçısı Xocalının Təzəbinə kəndində





**İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalının Təzəbinə kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub.**

Dövlətimizin başçısı əvvəlcə kəndə köçən Məhəmməd Fərəcovun evinə baş çəkib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görülən və həyata keçiriləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, kənddə 2025-ci ilin sonunadək ümumilikdə 197 fərdi ev hazır olacaq. Gələn il isə daha 159 fərdi evin təmir-tikintisi yekunlaşacaq. 2025-ci il iyulun 14-də 28 ailə - 125 nəfər yaşamaq üçün kəndə qayıdıb.

vHazırda kəndin müasir sosial infrastrukturunun qurulması istiqamətində işlər davam edir. Belə ki, 15,5 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa olunub, sayğaclaşdırma prosesinə başlanılıb, 11,4 kilometr uzunluğunda təbii qaz xətti çəkilib, 1,2 kilometr uzunluğunda mövcud xətt isə bərpa olunub. Həcmi 300 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 16 kilometr uzunluğunda rabitə xətti çəkilib və abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi üçün şərait yaradılıb. 3100 metr uzunluğunda kənddaxili yollara asfalt örtüyü salınıb, məktəbəqədər və ümumtəhsil müəssisələrinin binalarının təmir-bərpası istiqamətində hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulmuş bina əsaslı təmir edilir. Kənddə sakinlərin istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün bir hektar ərazisi olan müasir istirahət parkı yaradılıb.

Qeyd edək ki, Təzəbinə kəndi Xocalı rayonunun eyniadlı inzibati ərazi dairəsinə daxildir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusu tərəfindən həyata keçirilmiş antiterror tədbirləri nəticəsində kənd işğaldan azad olunub.

# Xocalı kərpic zavodunun açılışı



**İyulun 18-də Prezident İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib.**

Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur.

Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur.

Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır. Müəssisənin sahəsi bir hektara yaxındır. Bundan əlavə, 6,5 hektar ərazi xammalın saxlanılması üçün ayrılıb.

Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentlərinə təqdim olunan bütün güzəşt və azadolmalardan yararlanacaq. İşğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi bu ərazilərimizin iqtisadi potensialının reallaşdırılması, biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələlərdə çox mühüm rol oynayır. Bu ərazilərimizdə investor və sahibkarlar üçün əlverişli şərait yaradılır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir.



# Ölkə rəhbəri Xocalının Xanyurdu kəndində



**Prezident İlham Əliyev iyulun 18-də Xocalının Xanyurdu kəndində olub.**

Dövlətimizin başçısı kəndə köçən sakinlər Rasim Cavadovun və Kərəm Abbasovun evlərində oldu.

Qeyd edək ki, Xanyurdu kəndi Xocalı rayonunun Ballıca kənd inzibati ərazi dairəsinə daxildir. Kənddə 40 fərdi ev artıq əsaslı bərpa olunub, ilin sonunadək daha 65 fərdi evin bərpası nəzərdə tutulub, 2026-cı ildə isə 93 fərdi ev təmir və bərpa olunacaq. Bu il iyulun 14-də 33 ailə, ümumilikdə 122 nəfər doğma Xanyurdu kəndinə qayıdıb.

Hazırda kəndin sosial infrastrukturunun müasir səviyyədə qurulması üçün zəruri işlər görülür. 14 kilometr uzunluğunda 10 kV-luq elektrik xətti təmir-bərpa edilib, sayğaclaşdırma prosesinə başlanılıb, 10 kilometrdən çox uzunluğu olan təbii qaz xətti çəkilib, 4 kilometr uzunluğunda mövcud xətt bərpa olunub, artezian quyusu, həcmi 400 kubmetr olan su anbarı və içməli su şəbəkəsi təmir edilib, 10,4 kilometr uzunluğunda rabitə xətti çəkilib, abonentlərin stasionar telefon, internet və İPTV xidmətləri ilə əhatə edilməsi təmin olunub. İki kilometrdən çox uzunluğu olan kənddaxili yollar asfaltlanıb. Ümumtəhsil müəssisəsinin binasının təmir-bərpası ilə bağlı hazırlıq işləri görülür, ambulatoriya mərkəzi və market üçün nəzərdə tutulan bina əsaslı təmir edilir. Kənddə bir hektar sahədə istirahət parkı salınıb.

Prezident İlham Əliyev Təzəbinə və Xanyurdu kəndlərinə köçən sakinlərlə görüşdü, onlarla söhbət etdi.

**Sakinlər:** Hörmətli Prezidentimiz, əşq olsun Sizə! Allah Sizi qorusun! Allah Sizin üstünüzdə yar olsun! Bizim burada olmağımızın səbəbkarı sizsiniz. Bu, Sizin gərgin əməyinizin nəticəsidir.

**Sakin:** Ürəyim Sizə qurban. Xoş gəlmisiniz!

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz.

**Sakin:** Bu günümüzə şükür, Allah xanımınızı qorusun! Allah Sizi qorusun! Bu günü bizə yaşatdığınız üçün Allah üstünüzdə yar olsun! 200 neçə illik qara buludu üstümüzdən götürdünüz. Ağlasam, məni qınamayın. Sevinc göz yaşlarıdır.

*(ardı 4-cü səhifədə)*

# Ölkə rəhbəri Xocalının Xanyurdu kəndində






(əvvəli 3-cü səhifədə)

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Sağ olun, var olun, öpürəm. Allah Sizi qorusun! Amin!

**Prezident İlham Əliyev:** Sağ olun. Siz də xoş gəlmisiniz. Artıq bir neçə gündür ki, doğma torpağınızda yerləşmisiniz, şərait də yaxşıdır. Mən bu gün həm Təzəbinə kəndində, həm də Xanyurduda şəraitlə tanış oldum. Biz iki gözəl kəndi demək olar ki, yenidən bərpa etdik və sizin sərəncamınıza verdik.

**Sakinlər:** Çox sağ olun, minnətdarıq.

**Prezident İlham Əliyev:** Burada rahat yaşayın, xoşbəxt yaşayın, siz buna layiqsiniz. Siz uzun illər çətin şəraitdə yaşamısınız - çadır şəhərciklərində, vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, məktəblərdə, orada-burada, çox çətin şəraitdə. Amma inamınızı itirməmisiniz. İnanırdınız ki, doğma Vətənə qayıdacaqsınız. O gün də gəldi. İndi də belə gözəl, mənzərəli, səfalı yerlərdə yaşayırsınız və bu onu göstərir ki, ədalət hər zaman zəfər çalmalıdır. Amma ədaləti təmin etmək üçün gərək gücün və yumruğun olsun.

**Sakin:** Cənab Prezident, Allah Sizə qüvvət versin! Sizin gərgin əməyiniz öz yerində. Sinəsini düşmən gülləsinə sipər edən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizin canını sağ eləsin.

**Prezident İlham Əliyev:** Amin.

**Sakin:** Allah Sizi, xanımınızı qorusun. Var olun. Bu gün Sizinlə burada üz-üzə durmaqdan qiymətli heç nə yoxdur.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Cənab Prezident, bir dəqiqə olar?

**Prezident İlham Əliyev:** Bəli, buyur.

**Sakin:** Səhər-səhər mən evdən çıxanda, bağışlayın, bizim xanım dedi: Kişi, ən xoşbəxt insansan ki, bu gün Prezidentlə görüşəcəksən. Allah haqqı, elə belə də dedi.

**Prezident İlham Əliyev:** Sağ olun. Bütün qohumlara, ailə üzvlərinə salam yetirin. İndi siz buraya birinci köçənlərdənsiniz, amma bunun ardı gəlir. Bir, bəlkə də bir neçə aydan sonra burada, hər iki kənddə yəqin ki, minlərlə insan yaşayacaq. Dövlət bütün şəraiti yaradıb - evlər, həyətyanı sahələr, içməli su, təbii qaz, elektrik. Yəni, yenə də deyirəm, siz buna layiqsiniz.

**Sakin:** Maşallah, hər şey yüksək səviyyədədir.

**Prezident İlham Əliyev:** Çünki ən ağır vəziyyətdə yaşayanlar siz olmusunuz. Bütün bu otuz il ərzində yenə də, necə deyərlər, öz iradənizi göstərərək inanırdınız ki, bu tarixi gün gələcək və biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Həm 2020-ci ilin Vətən müharibəsi, həm də 2023-cü ilin antiterror əməliyyatı bizim şanlı qələbələrimizdir. Allah şəhidlərimizə rəhmət eləsin. Bundan sonra biz burada əbədi yaşayacağıq. Daha heç kim bizi bu yerlərdən çıxara bilməz.

**Sakin:** O günlər dalda qaldı.

**Prezident İlham Əliyev:** O, qaldı.

**Sakin:** Ulu öndərə də Allah qəni-qəni rəhmət eləsin ki, bizi Sizə tapşırıb.

**Digər sakin:** Ali Baş Komandanımızı Allah var eləsin, həmişə ucalarda olsun!

**Prezident İlham Əliyev:** Sağ olun. Təbrik edirəm, təbriklər. Harada yaşamısınız işğal dövründə?

**Sakin:** Pirşağı qəsəbəsində.

**Prezident İlham Əliyev:** Pirşağıda, sanatoriyada.

**Sakin:** Siz gəlmişdiniz oraya.

**Prezident İlham Əliyev:** Bəli. Orada şərait də çox ağır idi, çətin idi.

**Sakin:** Şükür bugünkü günümüzə.

**Digər sakin:** O vaxt mənim oğlum dağda şəhid oldu.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Sakin:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sizi təbrik edirəm. İndi burada xoşbəxt yaşayın. Allah sizi də qorusun, uşaqlarınızı da.

**Qadın sakin:** Mehriban xanıma salamlarımızı çatdırın, "Dəmir yumruğ"a güvənirik. Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Mütləq söyləyəcəyəm. Onun da sizə salamı var.

**Digər qadın sakin:** Şəhid bacısıyam. Sizə çox minnətdarıq.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Digər qadın sakin:** Çox sağ olun, var olun. Allah Sizi var eləsin, Allah dövlətimizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha təbrik edirəm.

**Sakin:** Çox sağ olun, cənab Prezident, bu yumruğunuz həmişə düşmənlərin üstündə olsun. Allah Sizdən razı olsun, Allah Sizi qorusun. Sizi dövlətimizin üstündən əskik etməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakinlər:** Sağ olun, tez-tez gəlin.

*AZƏRTAC*

# Bakıda ASOSAI və ARABOSAI-nin birgə toplantısı

**İyulun 18-də Azərbaycan Respublikası Hesablama Palatasının evsahibliyi ilə Ali Audit Orqanları Asiya Təşkilatı (ASOSAI) ilə Ali Audit Orqanları Ərəb Təşkilatının (ARABOSAI) birgə toplantısı keçirilib.**



Hesablama Palatasının sədri Vüqar Gülməmmədov bildirib ki, ASOSAI və ARABOSAI-nin eyni platformada qarşılıqlı əməkdaşlıq ruhunda bir araya gəlməsi regional əməkdaşlığın gücləndirilməsi, o cümlədən ali audit orqanları arasında təcrübə mübadiləsinin genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir. Onun sözlərinə görə, toplantının gündəliyində yer alan əsas mövzular – "Süni intellekt texnologiyalarının inkişafı və rəqəmsal keçid", eləcə də, "İqlim dəyişikliyinə qarşı mübarizə" zamanın tələblərinə cavab verən aktual və strateji əhəmiyyət daşıyan məsələlərdir.

Prezidentin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov Prezident İlham Əliyevin toplantı iştirakçılarına ünvanlanmış müraciətini səsləndirib.

Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) sədrliyini təmsil edən Jorje Antonio De Oliveira Francisko Azərbaycanın iqlim dəyişikliyi və rəqəmsal transformasiya sahəsində təşəbbüslərinin təqdirəlayiq olduğunu, bu kimi platformaların ali audit qurumlarının qarşılıqlı öyrənməsi və fəaliyyətlərinin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

ARABOSAI-nin sədri Sultan Al-Otaibi isə Azərbaycanın regional əməkdaşlığın gücləndirilməsində rolundan danışıb. Hazırda dünyanın iki mühüm çağırışla - iqlim dəyişikliyinə qlobal reaksiya və süni intellektin sürətli inkişafı ilə üz-üzə qaldığını deyən ASOSAI-nin sədri Krişnan Sanqaran Subramanian isə iqlim dəyişikliyi və süni intellektin auditlərin gündəliyinə daxil edilməsinin vacibliyini qeyd edib.

# Hərbi Prokurorluqda geniş kollegiya iclası



**Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda cinayətkarlığa qarşı mübarizə, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində 2025-ci ilin birinci yarımili ərzində görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib. Bu barədə Hərbi Prokurorluqdan məlumat verilib.**

Hesabat məruzəsi ilə çıxış edən Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə polkovniki Bəhruz Əhmədov bildirib ki, ötən illərdə olduğu kimi, 2025-ci ilin birinci yarımilində də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun, o cümlədən hərbi prokurorluğun uğurları davamlı hal alıb.

Hesabat dövründə qeydə alınmış cinayətlər ötən ilin birinci yarımili ilə müqayisədə ümumilikdə 10 faiz, qeyri-hərbi cinayətlər 2,5 faiz, hərbi xidmət əleyhinə olan cinayətlər isə 18,6 faiz azalıb.

Eyni zamanda, 2024-cü ilin birinci yarımili ilə müqayisədə, 2025-ci ilin birinci yarımilində qeydə alınmış hərbi xidmətdən yayınma cinayətləri ümumilikdə 43,9, o cümlədən hərbi xidmət vəzifələrinin icrasından boyun qaçırma cinayətləri 36,4, hərbi hissəni və ya xidmət yerini özbaşına tərketmə cinayətləri 45,3, fərarilik cinayətləri 70, eləcə də, vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma cinayətləri 52,9, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma cinayətləri 18,2, özünüöldürmə həddinə çatdırma cinayətləri 50 faiz azalıb, qəsdən adamöldürmə və qəsdən sağlamlığa ağır zərərvurma cinayətləri isə ümumiyyətlə qeydə alınmayıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

# Zərərçəkmişlər erməni hərbçilərin vəhşiliklərinə şahidlik edirlər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası iyulun 18-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Zərərçəkmiş şəxs Orxan Nəcəfov ifadəsində 2023-cü il sentyabrın 19-da antiterror əməliyyatları zamanı Ağdam istiqamətində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin törətdiyi genişmiqyaslı təxribatın qarşısını alarkən artilleriya atəşi nəticəsində xəsarətlər aldığını bildirib.

Zərərçəkmiş Bərzani Atayev diqqətə çatdırıb ki, 2023-cü il sentyabrın 19-da Ağdərə rayonunda tibb məntəqəsinin feldşeri olaraq yaralıları təxliyə edərkən düşmən tərəfindən atılmış mərminin partlaması nəticəsində xəsarət alıb. "Baxmayaraq ki, nəqliyyat vasitəsinin üzərində aypara şəkli var idi", - deyə o əlavə edib.

Raqif Əliyev ifadəsində antiterror əməliyyatları zamanı sentyabrın 20-də Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin yaxınlığında olduğu avtomobili minaatanla vurması nəticəsində xəsarət aldığını, yaralananların və bir nəfərin şəhid olduğunu söyləyib.

O, təqsirləndirilən şəxs David Manukyanın sualına cavabında "qarşı tərəfin məqsədi azərbaycanlıları məhv etmək idi, başqa məqsədlərini bilmirəm" deyib.

Zərərçəkmiş şəxs Kərəm Məmmədov ifadəsində 1990-cı il martın 7-də Ermənistanda girov saxlanıldığını bildirib. O, Zəngilan rayonu ilə Qafan rayonu arasındakı rabitə xəttini bərpa etmək üçün "UAZ" markalı avtomobillə həmin əraziyə getdiyini qeyd edib.

Kabel xətlərini yoxlaya-yoxlaya Qafan rayon rabitə qovşağına daxil olduqda qovşağın həyətinə toplaşmış ermənilər tərəfindən zərərçəkmiş şəxs özü və digər azərbaycanlılar təpik-yumruqla döyülərək girov götürülüblər.

Zəngilan rayonundan gəlmiş sovet hərbçiləri onları ermənilərdən təhvil alaraq "BTR"ə qoyub Zəngilan rayonuna gətirməklə girovluqdan azad ediblər. Zərərçəkmişlərə məxsus "UAZ" markalı avtomobil Ermənistanda onları girov götürmüş şəxslər tərəfindən mənimsənilib.

K.Məmmədov Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında qeyd edib ki, Ermənistanda aldığı xəsarətlərə görə iki ay xəstəxanada müalicə olunub.

Ceyhun Əliyev ifadəsində 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatları zamanı Canyataq istiqamətində düşmən tərəfindən atılmış minaatan mərmisinin partlaması nəticəsində xəsarət aldığını vurğulayıb.

O, dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında həmin vaxt Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatının qarşısını almağa çalışdıqlarını bildirib. "Çünki onlar müxtəlif təxribatlar törədir, bizim postları, azərbaycanlı mülki əhalini atəşə tuturdular", - deyə C.Əliyev əlavə edib. Zərərçəkmiş şəxs ibtidai istintaqa verdiyi ifadəsini təsdiqlədiyini də deyib.

Bu zaman təqsirləndirilən şəxs Levon Mnatsakanyan zərərçəkmiş şəxslərin istintaqa verdikləri ifadələrlə maraqlanıb. Hakim Zeynal Ağayev isə diqqətə çatdırıb ki, zərərçəkmiş şəxslərin ibtidai istintaq zamanı verdikləri ifadələr təqsirləndirilən şəxslərin əllərindəki planşetlərdə də var.

Emin Şahbazov ifadəsində söyləyib ki, 2023-cü il sentyabrın 19-da Ağdərə rayonu ərazisində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin atdığı tankəleyhinə mərminin onun yaxınlığında olan "BMP" texnikasına dəyməsi nəticəsində o və baş leytenant Eşqin Babazadə xəsarət alıblar.

Zərərçəkmiş Hilal Həsənov 2023-cü ildə antiterror əməliyyatları zamanı Ağdərə rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin açdığı atəş nəticəsində güllə xəsarəti aldığını deyib.

Səfiyar Məhəmmədli, Şükür Zeynalov və Elvin Məmmədov ifadələrində antiterror əməliyyatları zamanı Ağdərə, Əliqismət Nuriyev isə Xocalı istiqamətində xəsarət aldıqlarını bildiriblər.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Fərid Zeynalov qeyd edib ki, antiterror əməliyyatları zamanı Ağdam rayonunda yaralı hərbi qulluqçuları gətirmək üçün gedərkən tibbi nəqliyyat vasitəsi raketlə vurulub. Nəticədə o və briqadanın tibb məntəqəsi rəisi Fərhad Tağıyev yaralanıblar.

Antiterror əməliyyatları zamanı xəsarət almış digər zərərçəkmişlər - Elşən İbrahimli və Tural Məmmədov Ağdam rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin təxribatının qarşısını alarkən yaralandıqlarını diqqətə çatdırıblar.

Zərərçəkənlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi iyulun 21-də davam etdiriləcək.

*XQ*

# Azərbaycanın bölgədə yeni "qırmızı xətlər"i

## *İsrailin ingilisdilli "Yerusəlim Post" qəzeti rəsmi Bakının inadkar və müstəqil xarici siyasətindən yazıb*

**"Azərbaycan, Rusiya, İran: strateji sərhədlər təzədən çəkilir. Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradır" başlıqlı məqalənin müəllifi şərqşünas professor, tanınmış analitik Mordexay Keydardır. Müəllif məqalədə son illər Azərbaycanın Rusiya və İran kimi regional güclərlə münasibətlərində ciddi geosiyasi dəyişikliklərdən bəhs edir: "Bir vaxtlar Azərbaycan böyük və nüfuzlu qonşularının əhatəsində ehtiyatlı və balanslı siyasət yürüdən oyunçu kimi qəbul edilirdi. Amma indi bu ölkə çox inadkar və müstəqil xarici siyasətə keçib. Bu istiqamətdə addımları ilə Azərbaycan Cənubi Qafqazda çoxdan formalaşmış siyasi axara qarşı çıxmaqla yanaşı, strateji mövqeyini gücləndirən fəal regional oyunçu statusunu möhkəmləndirir. Rəsmi Bakının yeni siyasi xəttinin təməlində həm Rusiya, həm də İranla münasibətlərində uzun illər davam edən gərginliklər, bəzi hallarda qonşularının onu məyus etməsi dayanır".**

M.Keydarın qənaətinə görə, 2020-ci ildə İkinci Qarabağ müharibəsində qalib gələndən sonra Azərbaycan hərbi cəhətdən daha güclü, diplomatik baxımdan özünə daha inamlı qüdrətli bir dövlətə çevrilib. Rusiyanın Qarabağ münaqişəsi başa çatandan sonra sabitləşmə prosesinə hərtərəfli dəstək vermək əvəzinə, erməni maraqlarının hamisi rolunda çıxış etdiyini yazan müəllif buna görə Bakının dəfələrlə Moskvanı Ermənistanın təxribatlarına göz yummaqda, sabitliyə qahmar çıxmaq adı altında Azərbaycanın suverenliyinə müdaxiləyə cəhd göstərməkdə qınadığını vurğulayır: "Digər yandan İran getdikcə həm siyasi, həm də hərbi sahədə Ermənistanla daha yaxın əlaqələr qururdu. Tehranın "regional balans" ritorikasının altında əslində Azərbaycanın Qərblə əlaqələrini inkişaf etdirməsindən ciddi narahatlıq keçirməsi dayanırdı. İranın Azərbaycan sərhədində təşkil etdiyi, təxribat xarakterli bəyanatlarla müşayiət olunan hərbi təlimlər ikitərəfli münasibətlərin kəskin surətdə pisləşməsinə gətirib çıxarmışdı. Azərbaycan bütün bunlara iki əsas yolla – strateji itaətsizlik və diplomatik şaxələndirmə ilə cavab verdi. Bakı Türkiyə və İsraillə hərbi əməkdaşlığı gücləndirir, irimiqyaslı birgə hərbi təlimlər keçirir, Türk Dövlətləri Təşkilatı kimi regional platformalara daha sıx inteqrasiya olunur. Mahiyyətcə, Bakı yeni "qırmızı xətlər" çəkir və bunu təkcə öz təhlükəsizliyi naminə deyil, həm də bölgədə güc sahibi olduğunu anlatmaq məqsədilə edir".




Məqalədə bildirilir ki, Azərbaycanın özünün regional rolunu yenidən dəyərləndirməsi həm də onun enerji və logistika mərkəzi kimi əhəmiyyətinin gündən-günə artmasından irəli gəlir: "Azərbaycan Cənub Qaz Dəhlizi ilə Avropaya nəql olunan təbii qazın əsas tədarükçüsüdür. Avropanın Rusiyanın enerji daşıyıcılarından asılılığını azaltmağa çalışdığı bir dövrdə, bu, olduqca mühüm layihədir. Azərbaycanın enerji ixracını genişləndirmək vədinə sadiqliyi onu Avropa İttifaqının üzvü olan dövlətlərlə, həmçinin bir sıra digər ölkələrlə strateji müttəfiqə çevirib. Azərbaycan Rusiya və İrandan yan keçən yeni nəqliyyat marşrutlarının, xüsusilə Zəngəzur dəhlizinin, Şərq–Qərb, Şimal–Cənub ticarət dəhlizlərinin inkişaf etdirilməsi prosesinə də liderlik edir. Bu layihələr Avrasiyada ticarət dinamikasını dəyişir və türk dövlətləri, Mərkəzi Asiya ölkələri arasında Azərbaycanın "yumşaq güc"ünü artırır.

Mədəniyyət sahəsindəki diplomatiyası, beynəlxalq fəallığı, qlobal tədbirlərə ev sahibliyi etməsi, dinlərarası dialoqa dəstək verməsi göstərir ki, Bakının niyyəti bir-birinə rəqib dövlətlər arasında bufer olmaq deyil, onun daha ambisiyalı, daha böyük niyyəti var: Şərqlə Qərb arasında körpü salmaq".

Müəllif daha sonra vurğulayır ki, iri dövlətlər arasındakı rəqabətin girovuna çevrilmiş kiçik dövlətlərdən fərqli olaraq Azərbaycan fəal şəkildə öz strateji əhatəsini formalaşdırmaqla məşğuldur: "Bu gün Azərbaycan xarici siyasətini kor-koranə sədaqət üzərində deyil, müstəqil qərarlar, çoxvektorlu diplomatiya və düşünülmüş müttəfiqlik əsasında qurur. Şimal və Cənub qonşuları ilə münasibətlərdəki sərinləşmənin artacağı sarıdan bəzi narahatlıqları olsa da, amma belə görünür ki, Azərbaycan bu riskləri səbir və əzmkarlıqla, beynəlxalq tərəfdaşlıqları vasitəsilə idarə etməyə çalışır. Türkiyə, İsrail, Avropa İttifaqı ilə sıx əlaqələri və ABŞ-la əməkdaşlığının irəliləməsi Azərbaycandan ötrü kənar təzyiqlərə qarşı bir növ sipər rolunu oynayır".

Məqalədə qeyd olunur ki, Azərbaycan qonşularını təcrid etmək və ya özünə qarşı çevirmək niyyəti güdmür, yalnız öz suverenliyini və regional mövqeyini qoruyur: "Məcburetmə cəhdlərinə qətiyyətlə sinə gərən Bakı beynəlxalq ictimaiyyətə belə bir siqnal göndərir ki, fundamental maraqları təhdid altına düşəndə kiçik və orta güclər lazımi qədər dirəniş göstərə bilərlər.

Azərbaycanın inkişaf etməkdə olan xarici siyasəti ənənəvi regional asılılıq modelindən uzaqlaşmaya bariz nümunədir. Artıq passiv oyunçu və ya enerji daşıyıcıları üçün tranzit zonası kimi tanınması Azərbaycanı qane etmir. Rəsmi Bakı geosiyasi mövqeyindən, iqtisadi resurslarından və diplomatik təsir imkanlarından yararlanmaqla Avrasiyanın strateji mərkəzinə çevrilmək istəyir. Bununla da Azərbaycan Cənubi Qafqazda geosiyasi ssenarisinin yenidən yazılmasına – daha çoxqütblü, suverenliyə köklənmiş və xarici təzyiqlərə davamlı bir ssenarinin ortaya çıxmasına yardım edir.

Bütün bu dəyişikliklər regionda davamlı sülhə, tarazlığa gətirib çıxaracaqmı? Bu, tək Azərbaycanın dayanıqlı siyasətinə bağlı deyil, həm də qalan iştirakçıların yeni reallığı nə dərəcədə qəbul etməyə hazır olmalarından asılı məsələdir".

***Hazırladı:***
***İ.HƏSƏNQALA***
***XQ***

# Xaç kölgəsində siyasi oyunlar

**(əvvəli 1-ci səhifədə)**

Sirr deyil ki, baş nazir Nikol Paşinyan EAK-ın rəhbəri, bütün ermənilərin katolikosu II Qareginin, necə deyərlər, taxtdan salınmasına çalışır. Paşinyan bununla bağlı dəfələrlə açıq çağırışlar edib. Ancaq katolikos onun sözlərini qulaqardına vurur və patriarxlığı boşaltmaq fikrində deyil. Belə olan təqdirdə hakimiyyətin kilsə ilə bağlı qarşısına qoyduğu məqsədlərə çatmadığını demək mümkündür. Bu qarşıdurma ilə bağlı "Hraparak" qəzetində dərc olunan məqalə maraq doğurur. Bildirilir ki, Paşinyan kilsəyə, bütün ermənilərin katolikosuna və bəzi yepiskoplara qarşı elan etdiyi "müharibə"də çətin vəziyyətə düşüb və bundan sonra nə edəcəyini bilmir. Qeyd edilir ki, Nikol bu məsələdə geniş ictimai dəstəyin olmadığını başa düşür: "Paşinyan məhdud çevrədə insanları Eçmiədzinin üzərinə aparacağına və katolikosu istefaya məcbur edə biləcəyinə eyham vursa da, bu təklif bəyənilməyib. Onun komandası Paşinyanın təhlükəli niyyətini həyata keçirəcəyinə və ya qarşıdurmadan qaçacağına əmin deyil. Hələlik isə o, psixoloji təzyiq vasitələri ilə öz komandasını katolikosa qarşı təhrik etməklə patriarxlığı II Qaregindən azad etməyə çalışacaq və sair. Bu, onun iyulun 16-da keçirdiyi mətbuat konfransında aydın olub.

Qeyd edək ki, Paşinyan mətbuat konfransında "Ermənistan Respublikasını Serj Sarkisyandan azad etdiklərimi kimi, kilsəni də azad edəcəklərini" bəyan etmişdi. "Hraparak" isə qeyd edir ki, Paşinyan bu sözləri ilə 2018-ci ildə olduğu kimi tərəfdarlarını katolikosluğun üzərinə basqın etməyə aparacağı təəssüratı yaradıb: "Ondan patriarxlığı necə azad edəcəyini soruşduqda "sevgi ilə, dua ilə" cavabını verib. Yəni, sonradan bunun kortəbii hərəkət olduğunu deyərək özünə bəraət qazandırmaq üçün radikal bəyanatlarla ictimaiyyəti hansısa hərəkətə sövq etməyə çalışır. Ancaq son aylar göstərdi ki, hakimiyyətin bu məsələdə nə ölkə daxilində, nə də xaricdə tərəfdarı var".

Bildirilir ki, din xadimləri də əks-hücuma keçiblər: "Paşinyan hüquq-mühafizə orqanlarına katolikosa qarşı cinayət işləri düzüb-qoşmaq əmrini verdi. Artıq onlarca cinayət işi açılıb, lakin onlar hələ də ictimaiyyətə açıqlanmayıb. Paşinyan dəfələrlə komandasına bildirib ki, bu məsələ payıza qədər həll olunmalıdır".

Bu istiqamətdə qeyd etmək lazımdır ki, EAK tarix boyu qonşu xalqlara, xüsusilə azərbaycanlılara və türklərə qarşı nifrət ideologiyasının formalaşmasında mühüm rol oynayıb. Xüsusilə I Dünya müharibəsi dövründə və sonrakı illərdə Osmanlı imperiyasında erməniləri qiyama və separatçılığa təşviq edən başlıca ideoloji mərkəzə çevrilmişdi. Kilsənin xisləti XX əsr boyunca dəyişmədi və bu institut əsrin sonlarında Qarabağ məsələsində düşmənçiliyi körükləyən mövqedə dayandı. İndi də iki ölkə arasında etimadın yaradılmasını, barışıq cəhdlərini xəyanət kimi qələmə verir. Özünün imkanları ilə bütövlükdə cəmiyyətə, o cümlədən gənc nəslə revanşist düşüncələr aşılayır. Beləliklə, kilsə siyasi



alətə çevrilərək, sülhə deyil, qarşıdurmaya xidmət edir. Bu gün EAK Ermənistanda Azərbaycanla sülh sazişinin imzalanmasına açıq şəkildə çıxan nüfuzlu qurumdur. Kilsə hesab edir ki, belə bir sənəd Qarabağın hüquqi cəhətdən də itirilməsi anlamına gələcək. Eyni zamanda, kilsə Zəngəzur dəhlizinin açılmasına da kəskin etiraz edir və bunu Ermənistanın suverenliyinə təhdid kimi təqdim edir. Türkiyə ilə münasibətlərin normallaşdırılması isə patriarxlıq tərəfindən "erməni xalqının tarixi yaddaşına xəyanət" kimi qiymətləndirilir. Keşişlər bu prosesləri milli maraqlara zidd hesab edir və cəmiyyəti hökumətin atdığı addımlara qarşı səfərbər etməyə çalışırlar. Nəticədə kilsə həm daxili müxalifətin, həm də diasporun siyasi platformasına çevrilməkdədir.

*

"Hraparak"da dərc olunan son məqalə də vəziyyətin gərginliyini əks etdirir. Məqalədə qeyd olunan "Paşinyan bu məsələdə çətin duruma düşüb və ictimai dəstəyi azdır" sözləri yaxınlaşan seçkilər ərəfəsində baş nazir və bütövlükdə hakim komanda üçün ciddi çağırışdır. Aydın olur ki, Nikolun katolikosu devirmək planı komandasında da ciddi tərəddüdlər doğurub. Hətta Paşinyanın yaxın ətrafı belə bu riskli ideyanı dəstəkləmir. İyulun 16-da keçirilən mətbuat konfransında baş nazirin mövqeyi daha aydın göründü. O, hələlik psixoloji təzyiqlərlə və daxili təbliğatla Eçmiədzini zəiflətməyə çalışacaq. Ancaq hakimiyyəti daim tənqid hədəfinə çevirən "Hraparak"ın yazdıqlarından fərqli olaraq, proseslər göstərir ki, Ermənistan cəmiyyətində kilsəyə inam ciddi şəkildə azalıb. Paşinyan da kilsəni əvvəlki rejimin tərəfdarı, yaxud köhnə sistemin qalığı kimi təqdim etməyə çalışır və bu, müəyyən ictimai zümrələrdə qarşılıq tapır. Kilsənin uzun illərdir siyasətə müdaxilə etməsi, cəmiyyətə təsir rıçaqları üzərindən idarəçilik iddiası bu gün ciddi narazılıq doğurur. Xüsusilə gənc nəsil Eçmiədzinin mövqeyini arxaik və ölkəni geriyə aparan xətt kimi dəyərləndirir. Kilsə daxilində ciddi parçalanma və nüfuz böhranının hökm sürdüyü şəraitdə EAK-ın cəmiyyətə təsir imkanları gündən-günə zəifləyir.

Qeyd etdiyimiz kimi, Paşinyanla EAKilsəsi arasında gərginlik açıq qarşıdurma mərhələsinə keçib. Artıq din xadimləri də susmaq niyyətində deyillər və əks hücuma keçiblər. Açılan cinayət işləri də göstərir ki, hökumət kilsəni təzyiqlə susdurmaq, katolikosu isə vəzifədən uzaqlaşdırmaq üçün inzibati resurslardan istifadə etməyə çalışır. Paşinyanın komandasına bu məsələni payıza qədər həll etməyi tapşırması isə prosesin planlı şəkildə irəlilədiyini göstərir. Görünən budur ki, rəsmi İrəvan kilsəni təkcə siyasi rəqib yox, həm də ideoloji maneə kimi görür. Kilsənin öz mövqeyində israrla dayanması və ictimaiyyətə açıq çağırışlar etməsi mübarizəni daha da kəskinləşdirir. Belə bir şəraitdə Eçmiədzin rəhbərliyinə qarşı açılacaq istənilən cinayət işi Ermənistan daxilində və diaspor səviyyəsində ciddi rezonansa səbəb ola bilər. Bu da hakimiyyət üçün əlavə daxili təzyiq və beynəlxalq imic problemləri deməkdir.

*

Məsələ ilə bağlı politoloq, "Demokratik alternativ" partiyasının sədri Suren Surenyantsın da fikirləri maraqlıdır. Paşinyanın mətbuat konfransını şərh edən Surenyants bildirib ki, Ermənistan hakimiyyəti kilsəyə yeni hücum hazırlayır: "Məndə olan məlumata görə, hakimiyyət Milli Kilsə Assambleyasının çağırılmasını imitasiya edərək son dərəcə riskli plan həyata keçirməyi planlaşdırır. Xalq adından, guya, alternativ katolikos seçəcək marionet heyət formalaşacaq. Məqsəd kilsəni nüfuzdan salmaqdır. Bu, daha sonra geosiyasi kursun dəyişməsinin elementi kimi təqdim olunacaq və yepiskoplar Rusiyanın agentləri elan olunacaqlar".

Onun sözlərinə görə, hakimiyyət bu strategiya çərçivəsində öz planlarını həyata keçirmək məqsədilə, dəstək almaq üçün yepiskoplardan biri ilə danışıqlar aparır. Politoloq din xadiminin adını açıqlamayıb, onun hazırda Ermənistandan kənarda olduğunu, lakin Türkiyədə olmadığını bildirib.

Bu açıqlama isə göstərir ki, rəsmi İrəvan kilsəyə qarşı ənənəvi vasitələrlə deyil, daha incə üsullarla hücum hazırlayır. Bu, yalnız kilsənin nüfuzunu deyil, onun struktur bütövlüyünü də sarsıtmaq məqsədi güdür. Milli Kilsə Assambleyasının saxta yollarla çağırılması və "xalqın iradəsi" adı altında alternativ katolikos seçilməsi ciddi ictimai-siyasi böhrana yol aça bilər. Hökumət, görünür, Eçmiədzini zəiflədərək cəmiyyətin mənəvi dayağını dəyişmək niyyətindədir. Planın geosiyasi vektorla bağlanması, yəni yepiskopların Rusiya ilə əlaqələndirilməsi daxili mübarizəni xarici təhdid görüntüsü ilə əsaslandırmaq cəhdidir. Bu yanaşma həm Qərbə mesajdır, həm də daxili auditoriyaya yönəlmiş qorxu alətidir. Surenyantsın sözləri Hayastan üçün real təhlükənin xəbərçisidir. Qarşıda kilsəni də, cəmiyyəti də silkələyəcək ciddi təlatümlər yaşana bilər.

***Səxavət HƏMİD***
***XQ***

**Köşə**

# Sülhün yaxınlaşan ayaq səsləri...

**Əgər desək ki, Cənubi Qafqaz indiki qədər heç vaxt sülhə yaxın olmayıb, oxucular bizi həddən artıq nikbinliyə meyillənməkdə qınamasınlar. Çünki Cənubi Qafqazın ən uzunömürlü münaqişəsinin finişə yaxınlaşdığını isbatlayan və dediyimizin inandırıcılıq əmsalını kifayət qədər yüksəldən bir neçə vacib amil var. Bu amillər otuz ildən artıq müddətdə bir-birinə uzaqdan avtomatın nişangahından baxan Azərbaycan və Ermənistanın qarşıdurmaya son nöqtəni qoymaq, əlsıxmaya qədər yaxınlaşmaq iradəsini şərtləndirir. İndi tərəflərdən biri sülhün hənirini hiss etdikcə, deyəsən, az sonra onun yaradacağı həyəcanı indidən yaşamaqdadır. Bəli, İrəvan tarixi anın yaxınlaşdığının fərqindədir və bu səbəbdən baş nazir Nikol Paşinyan son çıxışlarında həm daxili, həm də xarici gündəmdə bir dənə də olsun açılmayan kart qoymadı.**



**İmran BƏDİRXANLI,**
**imranbedirxanli01@gmail.com**

Doğrudur, hazırda iki ölkə arasında "nə sülh, nə müharibə" vəziyyəti davam edir. Sülhə aparan hamar yolun hər iki tərəf üçün strateji əhəmiyyət kəsb edən Zəngəzur dəhlizindən keçəcəyi artıq heç kəsdə şübhə doğurmur. Beş il əvvəl bu, utopik yuxu kimi görünürdü, amma bu gün daşları yenidən bir yerə toplayan zamanın və Azərbaycanın yaratdığı reallığın tələbinə çevrilib.

Yuxarıda sülhü şərtləndirən vacib amilləri vurğuladıq. İkitərəfli münasibətləri normallaşma məcrasına yönəldən əsas amil kimi Ermənistan baş naziri Nikol Paşinyanın İstanbula tarixi səfərini və Azərbaycan Prezidenti İlham Əliyevlə Əbu-Dabidəki görüşünü qeyd etməliyik. Bakının xeyli müddət bundan əvvəl irəli sürdüyü vasitəçisiz, ikitərəfli dialoq təklifinin, nəhayət, ən optimal seçim olduğunu anlayan İrəvan barışıq yolunu seçdi. Ermənistan və Azərbaycan liderləri açıq şəkildə bəyan etdilər ki, onların sülh moderatorlarına ehtiyacları yoxdur. Bu mesajın altından boylanan həqiqət isə onu deyir ki, bölgədə özəl maraqları olan kənar güclər, keçmiş metropoliyalar bu iki qonşu dövlətə asılı ərazilər – forpostlar kimi yanaşa bilməzlər. Bakı və İrəvan bunu tək onlara deyil, bütün dünyaya bəyan etdilər: "Biz kiminsə buyruğu ilə addım atmırıq, biz müstəqil dövlətlərik". Bəli, qətiyyətli və birmənalı ismarıc ermənilərlə azərbaycanlıların barışmasını qəti arzulamayan yaxın və uzaq bədxahlarımızın boğazında sümük kimi ilişib qalıb.

Hesab edirik ki, ikinci vacib amil Nikol Paşinyanın son vaxtlar Türkiyə ilə təmaslara ciddi önəm verməyə başlaması fonunda, ilk növbədə Azərbaycanla münasibətləri normallaşdırmadan Cənubi Qafqazda sülh gündəmini dəyişə bilməyəcəyini anlamasıdır. Bakı İrəvana həmişə praqmatik təkliflər verib – kommunikasiyaların açılması, sərhədlərin delimitasiyası və demarkasiyası, eləcə də sülh sazişini imzalamaqdan ötrü beynəlxalq hüquqa söykənən şərtlərimizin yerinə yetirilməsi. Bu müstəvidə Azərbaycan həmişə məsələyə sağlam yanaşma nümayiş etdirib, praqmatizmi özünün prioriteti sayıb.

Rəsmi İrəvanın danışıqlar prosesində mövqeyinə müsbət təsir edən amillərdən biri də Prezident İlham Əliyevin Ermənistan baş naziri ilə açıq, düzgün və səmimi davranışıdır. Birbaşa, tet-a-tet danışıqlar aparmağın effektini anlayan rəsmi İrəvan tədricən alternativlərin tükəndiyinə də əmin oldu. Paşinyanın son görüşlərdə dövlətimizin başçısı ilə daha çox təmasda olmağa, münasibət qurmağa çalışmasını məhz bu aspektdən dəyərləndirməyimiz doğru olar. Məsələn, Tiranada Avropa Siyasi Birliyinin sammitində Nikol Paşinyan Azərbaycan liderini qəhvə içməyə dəvət edəndə biz bunun şahidi olduq. Həmin jestin özü İrəvanın artıq fərziyə və gümanlara deyil, sağlam düşüncəyə üz tutduğunun vizual göstəricisi idi. Sülh danışıqlarının ikitərəfli formatında irəliləyişin əldə olunması həm də onu təsdiqləyir ki, məhz Azərbaycan rəhbərliyi Ermənistan baş nazirinin yeni siyasi dialoq modeli ilə hərəkət etməsinə yardımçı oldu.

Amma tarix yalnız praqmatiklərin diktəsi ilə hərəkət etmir və ikitərəfli danışıqlarda tərəqqi o zaman başlayır ki, kimsə dünənki qeyri-mümkünün bu gün reallaşacağına inanmağa başlayır. Bunun üçün ondan axına qarşı üzmək tələb olunsa belə. Reallığın qəbulu və siyasi cəsarət ilk addımı atmağa vəsilə olur. Əgər Ermənistan və Azərbaycan öz aralarında sülhə nail olsalar və Ankara hayların beynində müvafiq olaraq İrəvanın qorxulu qonşusu deyil, müttəfiqinə çevrilsə, o zaman qeyri-mümkün görünən reallığa dönəcək. İndi İrəvan üçün əsas məsələ geri çəkilməmək və geri dönməməkdir. Bəli, Cənubi Qafqaz sülhün yarım addımlığındadır. Yəni sülhə heç vaxt olmadığı qədər yaxındır.

Bu optimizmi ABŞ Prezidenti Donald Tramp da bölüşür. O, Ermənistan və Azərbaycan arasında münaqişənin tezliklə uğurla tənizmlənəcəyini bəyan edib. Həm də bunu əminliklə dilə gətirib: "Və biz daha bir məsələni – Ermənistan–Azərbaycan münaqişəsini həll etdik: Deyəsən, başa çatmaq üzrədir. Uğurlu sonluqlar üçün".

Haradan haraya?! Bunu Paşinyanın son yeddi ildə qət etdiyi hakimiyyət marafonunun yaddaqalan mərhələlərini gözümüz önündən keçirərək yazdıq. İkinci Qarabağ müharibəsinə qədər Şuşada içkili halda yallı gedən, "Qarabağ Ermənistandır və nöqtə" deyən, Cəbrayıla yol çəkməkdən dəm vuran, beş il sonra isə Azərbaycan xalqını Qurban bayramı münasibətilə təbrik edən Paşinyanın hökumət başçısı kimi keçdiyi yolun ziqzaqlarına heyrət etməmək mümkün deyil. İndi, o, sülhü yubatmağın özünün ziyanına olduğunu yaxşı başa düşür. Məhz bu halda onun gələn ilin parlament seçkisinə qədər Azərbaycan və Türkiyə ilə münasibətləri nizamlamaq imkanı var. Əgər bu baş verərsə, ondan sonra bayramlar və seçkidə qələbə münasibətilə qarşılıqlı təbriklərin xüsusi əhəmiyyəti olacaq...

# “Terrorsuz Türkiyə” amili: region və Azərbaycan

(əvvəli 1-ci səhifədə)



Bəli, 2016-cı ilin 15 iyulunda yaşananlar Türkiyəni əvvəlki illərə qaytarmaq istəyənlərin uğursuz cəhdi idi. Elə bir cəhd ki, ölkənin güclü dövlətə çevrilməsinin qarşısını almağa, ona daim siyasi təbəddülatlara məhkumiyyət aqibətini yaşatmağa hesablanmışdı. Hər halda, Prezident İlham Əliyev məktubunda “Terrorsuz Türkiyə” amili üzərində əbəs yerə dayanmır. Dövlətimizin başçısı fikirləri ilə daxili gərginliklərdən uzaq sabit Türkiyənin qlobal əhəmiyyətini önə çəkir. Əlbəttə ki, Prezident Ərdoğanın xidmətlərini vurğulamaqla: “Siz hazırda da “Terrorsuz Türkiyə” hədəfinin reallaşması, gələcək nəsillərə təhlükəsiz, dinc və firavan ölkə miras qoymaq uğrunda qətiyyətlə və əzmlə çalışırsınız. Bu yaxınlarda PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı Sizin güclü siyasi iradənizin parlaq nəticəsi, milli birlik və həmrəyliyin təntənəsi oldu”.

Nəzərə alaq ki, çevrilişlərlə yanaşı, terror da xarici qüvvələrin, qlobal güclərin Türkiyənin inkişafını, ümumən türk milli kimliyinin yüksəlişini əngəlləmək naminə cızdıqları məkrli ssenarilərdən qaynaqlanmışdı. Bu gün qardaş ölkə əzəməti ilə həmin ssenarilərə qarşı güclü müqavimət hissinə və dayanıqlı immunitetə malikdir. Ən başlıcası isə cənab Ərdoğanın sayəsində əldə edilmiş yüksək status və onun verdiyi güc Türkiyəyə dünya ölkələri sırasında söz sahibliyini qazandırıb. Nəticədə bu günün Türkiyəsi özü ilə hesablaşmanı nəinki zərurətə, eyni zamanda məcburiyyətə çevirməyi bacarmış qüvvədir. Bu qüvvənin uzunmüddətli hədəflərə hesablanmış siyasi strategiyası və həmin strategiyanı həyata keçirmək üçün möhkəm iradəsi, yenilməzliyi və prinsipiallığı var.

Bəli, terrorsuz Türkiyə beynəlxalq müstəvidə ümumtürk konsolidasiyasını dönməz prosesə çevirmək, türk dünyasını qlobal güc mərkəzi kimi formalaşdırmaq əzmini daşıyan dövlətdir. Eyni zamanda, terrorsuz Türkiyə bütövlükdə region, yaşadığımız siyasi coğrafiya baxımından da son dərəcə vacib amildir. Hər halda, PKK terror qruplaşmasının silahı yerə qoymaq qərarı adi məsələ sayıla bilməz. Bu da öz növbəsində xarici qüvvələrin uzun zamandır həyata keçirdikləri siyasi oyunların iflası deməkdir. Həmin oyunların isə hədəfi yalnız Türkiyə olmurdu.

Fikrimizin təsdiqi kimi, 44 günlük Vətən müharibəsi dönəmini yada salaq. Həmin vaxt, konkret olaraq, 2020-ci ilin dekabrında Almaniyanın nüfuzlu “freitag.de” informasiya-analitik portalında məşhur siyasi icmalçı Mark Lambsdorfun “PKK silahlıları Dağlıq Qarabağ münaqişəsində” sərlövhəli məqaləsi dərc edilmişdi. O, müharibədə terrorçuların erməni işğalçıları ilə birlikdə döyüşdüyünə dair faktlar açıqlanmışdı.

Ümumən, Ermənistan-PKK əlaqələri ötən əsrin 90-cı illərindən başlanmışdı. Zaman-zaman birincinin ikinciyə gizli dəstək verdiyi də məlumdur. Ermənistanın sabiq rəhbərlərinin və bəzi diaspor təşkilatlarının terrorçu təşkilata simpatiya ilə yanaşdıqları da həmçinin. Görünür, məhz bu simpatiyanın nəticəsi idi ki, I Qarabağ müharibəsində də ermənilərin cərgələrində PKK-nın fəalları döyüşmüş, 1993-cü ildə qurumun Ermənistandakı bazaları işğal altındakı Qarabağa keçirilmişdi.

II Qarabağ müharibəsinə gəldikdə, Türkiyə və Azərbaycan rəsmilərinin Ermənistanı PKK və YPG üzvlərini döyüşə cəlb etməkdə günahlandırmaları xatirimizdədir. Digər tərəfdən, PKK və erməni millətçilərinin ASALA kimi terror təşkilatlarının ortaq ideoloji xətti – türk düşmənçiliyini əsas götürərək fəaliyyət göstərdikləri də danılmazdır.

Sonda belə nəticəyə gəlirik ki, terrorsuz Türkiyə sabit və inkişaf etmiş Türkiyədirsə və “Terrorsuz Türkiyə” amilinin regional əhəmiyyəti də varsa, deməli, bu amil bütövlükdə regionun inkişafı və tərəqqisi baxımından son dərəcə müstəsna əhəmiyyətə malikdir. Bildirdiklərimizi ümumiləşdirərək bu qənaətə də gələ bilərik ki, Azərbaycan 44 günlük müharibədəki Zəfəri ilə təkcə özünün ərazi bütövlüyünü və suverenliyini bərpa etmədi, eyni zamanda, Ermənistanın terror dövləti obrazına sarsıdıcı zərbə vurdu. Deməli, regionun inkişafına müstəsna töhfə baxımından ölkəmizin rolunu bir daha xüsusi vurğulamağa ehtiyac var. Əminik ki, Türkiyə və Azərbaycan qardaşlığı və bu qardaşlığın özünü əməli iş müstəvisində göstərdiyi tərəfdaşlıq daha qlobal vəzifələrin icrasına köklənməklə, sülh, sabitlik, firavanlıq və rifah naminə möhkəm və dayanıqlı formul müəyyənləşdirəcək. Qardaşlığımızın sarsılmazlıq və bütövlük əsasları ilə yeni naliyyətlərə imza atacağı da şübhəsizdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Belçikada ermənipərəst “BATULİZM”

## *Alen Simonyan sevinirsə, necə düşünək ki, İrəvan sülh gündəliyinə sadiqdir?*

**Hərdən bəzi məsələləri anlamaq olduqca çətindir. Belçika Nümayəndələr Palatasının iyulun 17-də çıxardığı anti-Azərbaycan mahiyyətli qətnaməsi də bu qəbildəndir. İstər-istəməz, düşünürsən: Görəsən, belçikalı parlamentarilər nə yeyib, nə içirlər?**



Sualımız qəribə gəlməsin. Çünki batulizm, yəni zəhərlənmə çox pis haldır. Beyin hüceyrələrini sıradan çıxarır. Nəticədə insan qeyri-adekvat hərəkət və davranışlar nümayiş etdirir. Bəs niyə məhz zəhərlənmədən söz açdıq? Ona görə ki, Belçika Nümayəndələr Palatası haqqında pis düşünmək niyyətindən uzağıq. Məsələn, deyə bilərdik ki, palatanın üzvləri Azərbaycan əleyhinə mənasız və qərəzli qətnamələr sıralayan Avropa Parlamentinin deputatları kimi narkotik maddənin təsiri altında olurlar. Demir və bildiririk ki, belçikalı “palataçılar” qidadan zəhərləniblər. Onların əndrabadi yanaşmalarının səbəbləri barədə başqa nə isə düşünmək olmur. Hərçənd...

Əlqərəz, Belçika Nümayəndələr Palatası qətnaməsində Azərbaycanın “Qarabağ ermənilərinə hücumunu” pisləyib və durumu “beynəlxalq hüququn pozulması” kimi qiymətləndirib. “Palataçıların” batulizminin ən böyük təzahürü də elə budur. Təsəvvür edin, rəsmi İrəvan onların gündəmə gətirdikləri cəfəngiyyatı özünün xarici siyasət gündəmindən çıxarıb, amma Belçika parlamentariləri yenə köhnə havalardadırlar. Çox güman, zəhərlənmə onların elementar məntiqlərini də sıradan çıxarıb.

Amma tam belə demək mümkünsüzdür. Çünki “palataçılar” Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi mətninin mövcudluğundan məlumatlıdırlar. Qərbi Azərbaycan məsələsindən də həmçinin. Xəbərdar olmaları “Qərbi Azərbaycan” reallığını ölkəmizin, guya işğala can atması, hədə-qorxu gəlməsi olaraq qiymətləndirmələrindən məlumdur. Deməli, elə təsəvvür formalaşdırılır ki, sanki Azərbaycan barış istəmir. Bu “ideyanın” Avropadakı erməni lobbi və diaspor təşkilatlarının zay məhsulu olduğu aşkardır. Amma...

“Əmma” barədə yazımızın sonuncu cümləsində bəhs edəcəyik. Hələlik bildirək ki, “palataçılar” qətnamələrinə Qarabağdakı keçmiş separatçı rejimin rəhbərlərinin Azərbaycan həbsxanalarında saxlanılmalarını da daxil ediblər. Daha doğrusu, durumu pisləməyi yaddan çıxarmayıblar. Onlar tələb ediblər ki, “bütün erməni əsirlər sərbəst buraxılsınlar”. Bu yerdə məşhur Azərbaycan filmi “Bəxt üzüyü”ndə səslənmiş və dillərdə əzbərə çevrilmiş bir ifadəni xatırlayırıq: Qoymuyun, üstümə İrasim gəlir. Hərçənd, bu ifadəni işlədən Moşu obrazının xoşbəxtliyə qafiyə axtarması belçikalı parlamentarilərin ermənipərəst təəssübündəki motivlərdən daha məntiqli və səmimidir.

Qətnamədə yer alan köhnə klişelərdən biri də “Qarabağın erməni mədəni irsi”dir. “Palataçılar” yenə Moşunun məşhur ifadəsini yada salmağımıza əsas yaradırlar. Onlar Azərbaycandan UNESCO-nun missiyasını Qarabağa buraxmağı və dəymiş zərərin qiymənləndirilməsinə icazə verməyi tələb edirlər. Görəsən, başqa istədikləri bir şey yoxdur?! Çəkinmədən desinlər, canla-başla yerinə yetirək!

Belçika “palataçılarının” pozitiv kimi qiymətləndirdikləri məqama köklənək. Söhbət qətnamədə Bakı-İrəvan sülh sazişi təşəbbüsünün alqışlanmasından və onun imzalanmasının vacibliyinin vurğulanmasından gedir. “Palataçılar” tərəfləri sazişin şərtlərinə əməl etməyə çağırıblar. Görəsən, imzalanmayan müqavilənin şərtlərinə necə əməl etmək olar?

Maraqlı məqamlardan biri də budur ki, Nümayəndələr Palatası Belçika hökumətinə qarşı da tələblər irəli sürüb. Sən demə, hökumət hərbi cinayətlərin beynəlxalq səviyyədə araşdırılmasını dəstəkləməli, Ermənistanda konsulluq mövcudluğunu artırmalı, rəsmi İrəvanla humanitar və hərbi əməkdaşlığı daha da dərinləşdirməlidir. Həmçinin, “palataçıların” fikrincə, Aİ insan hüquqlarını pozanlara qarşı hədəfli sanksiyalar tətbiq etməlidir. Aydındır ki, bu tezislər Azərbaycana qarşıdır və ölkəmizə sanksiya tətbiqi çağırışıdır.

Eyni zamanda, qətnamədə o da vurğulanır ki, Aİ Ermənistandakı müşahidə missiyasını genişləndirməli və əgər Bakı sülhə hazır olduğunu nümayiş etdirməsə, qurum Azərbaycanla münasibətlərinə yenidən baxmalıdır. Görəsən, “palataçılar” niyə ölkəmizin sülh istəmədiyinə dair ritorika təbliğatına girişiblər? Bu suala da cavab verəcəyik.

Amma əvvəlcə qeyd edək ki, qətnamənin həmmüəllifi, Belçika Nümayəndələr Palatasının deputatı Mişel de Maeqd diqqətə çatdırdığımız sonuncu xüsusla əlaqədar cəfəng fikirləri də səsləndirib. “Baş palataçı”nın sözlərinə görə, bir tərəfdə sülh üçün daim yeni ilkin şərtlər irəli sürən Azərbaycan, digər tərəfdə yalnız suverenliyinə hörmət edilməsini tələb edən və dialoqa açıq Ermənistan dayanır. “Biz qanunun və ədalətin tərəfində qalmalıyıq. Belçika Ermənistana dəstəyini davam etdirməli və onunla əməkdaşlığı daha da dərinləşdirməlidir”.

Əlbəttə, Belçika Nümayəndələr Palatasının qərəzli qətnaməsinə dair başqa məqamlardan da söz aça bilərdik. Amma buna ehtiyac duymuruq. Çünki sənəd Avropanın müxtəlif dairələrinin anti-Azərbaycan motivli qətnamələrinin təkrarıdır. Ancaq indiki məqamda belə bir qərəzli lakmus kağızının dövriyyəyə buraxılması sual doğrurur.

Deyək ki, əvvəllər bu sayaq qətnamələr Azərbaycanı sülh müqaviləsi layihəsinin ayrı-ayrı məqamları ilə bağlı razı salmaq üçün ölkəmizə təzyiq məqsədi güdürdü. Axı indi Bakı və İrəvan arasında pozitiv gündəlik var. İyulun 10-da Azərbaycan və Ermənistan liderlərinin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirdikləri ikitərəfli və çoxtərəfli görüşün nəticələri fikrimizin sübutudur. Yəni, tərəflər hazırda heç vaxt olmadığı qədər ortaq məxrəcə gəlmək üstünlüyünə malikdirlər və mövcud durumun sülh prosesinə müsbət təsiri şübhəsizdir. Elə isə ənənəvi anti-Azərbaycan mahiyyət daşıyan klişeləri yenidən gündəmə gətirmək nəyə lazımdır?

Belə düşünmək olar ki, xaricdəki müəyyən qüvvələri də narahat edən Azərbaycan və Ermənistan tərəfinin bir-biri ilə, loru dildə desək, dil tapa bilməsidir. Onu da düşünmək mümkündür ki, həmin qüvvələr ölkələr arasındakı ədavəti qızışdırmaq yolu tuturlar. Əlbəttə ki, Belçika Nümayəndələr Palatasının qərəz dolu anti-Azərbaycan cızma-qarasının arxasında rəsmi İrəvanın əli yoxdursa. Haqqında əvvəldə söz açdığımız “əmma” da məhz budur. “Əmma” həm də budur ki, Ermənistan parlamentinin sədri Alen Simonyan Belçika Nümayəndələr Palatasının Azərbaycana qarşı qərəzli və təxribat xarakterli qətnaməsinə sevinib. O, “X” platformasında açıqlama yayıb və sənədin müəllifləri El Van Xufa və Mişel de Maeqeyə təşəkkürlərini çatdırıb. Simonyan qondarma sənədin qəbulunda iştirak edən bütün deputatlara minnətdarlığını izhar etməyi də unutmayıb və bundan sonra Ermənistanın sülh gündəliyinə inanmalıyıq?

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Diplomatiyamızın uğur tablosu




(əvvəli 1-ci səhifədə)



Azərbaycanın son dövrlərdə bir neçə nüfuzlu beynəlxalq təşkilatın icra və qərarverici strukturlarına üzv seçilməsi uzunmüddətli və sistemli dövlət siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Xüsusilə, 2025–2029-cu illər üçün BMT-nin Məskunlaşma Proqramı İcraiyyə Şurasına seçilməsi Azərbaycanın urbanizasiya sahəsində əldə etdiyi real nailiyyətlərin beynəlxalq miqyasda təsdiqidir. Qazanılan uğur illərlə planlı şəkildə aparılan şəhərsalma islahatlarının və post-münaqişə dövründə Qarabağda tətbiq olunan “ağıllı şəhər” konsepsiyasının yaratdığı yeni inkişaf modelinin təntənəsidir. Azərbaycanın bu sahədə innovasiyalara açıq yanaşması, yaşıl texnologiyaların tətbiqi və dayanıqlı infrastruktur quruculuğu üzrə həyata keçirdiyi layihələr ölkəni urbanizasiyanın müasir meyarlarına cavab verən nümunəyə çevirib.

Turizm sahəsində əldə edilən uğur – BMT-nin Turizmin İcraiyyə Şurasına üzvlük – isə Azərbaycanın “yumşaq güc” siyasətinin effektiv alət kimi ustalıqla tətbiq edildiyini göstərir. Ölkə bir tərəfdən mədəni-tarixi irsini beynəlxalq turizm bazarına çıxarır, digər tərəfdən isə ekoloji turizmin inkişafı vasitəsilə həm daxili regionların sosial-iqtisadi inkişafını stimullaşdırır, həm də qlobal tendensiyalarla ayaqlaşan aktor olaraq mövqeyini möhkəmləndirir. Turizmin siyasi və mədəni kommunikasiya vasitəsinə çevrildiyi indiki dövrdə Azərbaycanın bu sahədə fəallaşması onun beynəlxalq humanitar təsir imkanlarını genişləndirir.

UNESCO-nun Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Komitəsində Azərbaycan təmsilçiliyi isə ölkəmizin mədəni diplomatiyada artan rolunun rəsmi təsdiqidir. Rəsmi Bakının bu uğuru Azərbaycan multikulturalizminin dünyaya təqdim etdiyi unikal modelin – fərqli etnik, dini və mədəni kimliklərin birgə, dinc və məhsuldar yaşamasının – universal dəyərlər səviyyəsində tanınması anlamına gəlir. UNESCO platformasında təmsilçilik zəngin irsin qorunması, təşviqi və gələcək nəsillərə ötürülməsi üçün beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi deməkdir. Azərbaycanın “mədəniyyətlərarası dialoq” çağırışının fəal müdafiəçisi kimi tanınması regionda və bütövlükdə Avrasiya məkanında sabitliyin və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edir.

Bütün bu proseslərə sistemli yanaşma və ardıcıl strategiya ilə nail olunması Azərbaycan diplomatiyasının çevikliyini, dövlət idarəetməsinin institusional dayanıqlılığını və milli inkişaf modelinin qlobal reallıqlarla uyğunluğunu bir daha nümayiş etdirir. Azərbaycanın beynəlxalq platformalarda qazandığı uğurlar təsdiqləyir ki, ölkə artıq qlobal qərarvermədə fəal təşəbbüskar və bəzən də yönverici aktora çevrilməkdədir.

Azərbaycanın BMT-nin Əməkçi Miqrantlar üzrə Komitəsinə üzv seçilməsi isə ölkənin son illərdə həyata keçirdiyi insan mərkəzli siyasətin beynəlxalq miqyasda tanındığını və yüksək qiymətləndirildiyini nümayiş etdirir. Elə bu uğur da təsadüf deyil. Bunun arxasında uzunmüddətli strateji yanaşma, hüquqi çərçivənin gücləndirilməsi və sosial müdafiə mexanizmlərinin ardıcıl təkmilləşdirilməsi dayanır. Azərbaycan miqrantları yalnız əmək resursu kimi görməyərək, onların hüquqlarının qorunması, cəmiyyətə inteqrasiyası və layiqli həyat şəraitinin təmin edilməsi istiqamətində mühüm təşəbbüslər irəli sürür. Hüquqi maarifləndirmə proqramları, sosial uyğunlaşma tədbirləri və beynəlxalq əməkdaşlığa əsaslanan inteqrasiya strategiyaları ölkənin bu sahədə nümunəvi model formalaşdırmasına imkan verib. Beləliklə, Azərbaycan qlobal miqrasiya idarəçiliyində də konstruktiv tərəfdaş və məsuliyyətli aktor kimi çıxış edir.

Bununla yanaşı, Azərbaycanın BMT-nin Ətraf Mühit Proqramının Daimi Nümayəndələr Komitəsinə sədrlik hüququ qazanması ölkənin ekoloji siyasətdə daha yüksək mərhələyə keçdiyini göstərir. Ətraf mühit məsələləri bu gün iqtisadi, sosial və siyasi mahiyyət daşıyır. Məhz bu kontekstdə Azərbaycanın “yaşıl keçid” strategiyası – bərpa olunan enerji mənbələrinə keçid, ekosistemin qorunması, tullantıların azaldılması və dayanıqlı inkişaf hədəflərinin reallaşdırılması – beynəlxalq ictimaiyyət tərəfindən nümunəvi yol xəritəsi kimi qəbul olunur. Azərbaycanın ekoloji çağırışlara münasibətdə fəal mövqe tutması onu ekoloji məsuliyyət daşıyan və qlobal iqlim siyasətində söz sahibi olan bir dövlət kimi təqdim edir. Komitəyə sədrlik hüququ Azərbaycanın beynəlxalq diplomatiyada koordinasiya və liderlik qabiliyyətini bir daha təsdiqləyir.

*

Diplomatik uğurlar sırasına Azərbaycanın daha az görünən, lakin strateji baxımdan əhəmiyyətllı olan bir nailiyyəti də əlavə olunur – ölkə nümayəndəsinin Beynəlxalq Mülki Müdafiə Təşkilatı kimi nüfuzlu humanitar qurumun Baş Katibi vəzifəsinə seçilməsi. Yenə mahiyyət etibarilə bu fakt da Azərbaycan diplomatlarının peşəkarlığının, liderlik keyfiyyətlərinin və institusional hazırlığının təntənəsidir. Bu təyinat, eyni zamanda, Azərbaycanın humanitar diplomatiya sahəsində artan nüfuzunun və beynəlxalq etimad kapitalının göstəricisidir. Qlobal humanitar çağırışların getdikcə dərinləşdiyi bir dövrdə Azərbaycanın belə bir mötəbər beynəlxalq qurumda təmsil olunmas ölkənin bu sahədə təşəbbüskar, məsuliyyətli və etibarlı tərəfdaş kimi qəbul olunduğunu göstərir.

Bütün bu uğurlar fonunda Azərbaycan bir daha sübut edir ki, yalnız öz maraqlarını deyil, həm də qlobal rifah və ədalət naminə çalışan bir ölkədir. Sosial siyasətdən ekologiyaya, miqrasiyadan humanitar məsələlərə qədər geniş bir spektrdə həyata keçirilən təşəbbüslər ölkənin beynəlxalq münasibətlərdə fəal formalaşdırıcı aktor kimi iştirak etdiyini göstərir. Bütün bu amillər Azərbaycanın diplomatik gündəmində yeni bir mərhələnin başlandığını və bu mərhələnin artıq qlobal miqyasda qarşılıqlı etimad və liderlik üzərində qurulduğunu təsdiqləyir.

Bəli, Azərbaycanın ardıcıl diplomatik uğurları təsadüfi deyil – bu, illərlə yürüdülən ağıllı güc siyasətinin nəticəsidir. İqtisadi dayanıqlılıqla yanaşı, mədəni diplomatiya, ekoloji məsuliyyət və humanitar təşəbbüslər kimi “yumşaq güc” alətlərinin sistemli şəkildə tətbiqi Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş və prinsipial aktor kimi mövqeyini möhkəmləndirib.

Əldə edilən uğurlar postmünaqişə dövründə Azərbaycanın regional liderliyini legitimləşdirən və qlobal qərarvermə masasında yer almasına haqq qazandıran nailiyyətlərdir. Artıq Azərbaycan mədəniyyət, ekologiya və sosial siyasət sahələrində də nüfuzlu aktor kimi çıxış edir. Sonda onu da qeyd etməliyik ki, bütün bunlar dövlətçilik fəlsəfəsinin, idarəetmə sisteminin və milli vizionun qlobal təsdiqidir. Azərbaycanın uğur tablosu – yalnız keçmişin deyil, həm də gələcəyin diplomatik xəritəsidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Terrorla mübarizədə “türk strategiyası”: konseptual aspekt



III MƏQALƏ

## 2003-cü ildən sonra

Azərbaycana qarşı terrorun iki mərhələdə olması və bu prosesin əsasən dövlətçiliyi məhv etməyə yönəlməsi, onunla mübarizəyə xüsusi məzmun verməli idi. Özlüyündə bu proses çox mürəkkəbdir və çoxlu sayda məsələləri nəzərə almağı tələb edir. XXI əsrin gəlişi ilə Azərbaycanın terrorla mübarizəsinə daha çox haqq qazandıran başqa bir gedişat meydana gəldi. 2003-cü ilin sentyabrında ABŞ-da göydələnlərə qarşı törədilən terror bütün dünya üçün “beynəlxalq terror” anlamına xüsusi ehtiyatlılıq verdi. Yaşamaq riskindən kimsənin sığortalanmadığı duyğusunu canlandırdı və “hamının birgə” terrordan sığortalanması zərurətini bir daha anlatdı. Prinsipial olaraq dünyanın terrora münasibəti dəyişməyə başladı. Bu məqamda bütövlükdə türk dünyası və ayrıca Azərbaycan üçün əhəmiyyətli olan bir faktoru vurğulayaq.

## Bumeranq

Özünü dünyanın ən qüdrətli dövləti hesab edən ABŞ-nin dəqiqələr içərisində minlərlə insanı terrora qurban verməsi, bütövlükdə “terror istehsalçılarına” qarşı yönəlmiş bumeranqın ilk əlaməti oldu. Bununla siyasi düşüncədə iki mühüm faktor dəyişdi.

Birincisi, terror özünün lokal təsir hüdudlarını aşaraq, faktiki olaraq dünyanın istənilən ölkəsində meydana gələ bilmək imkanlarını göstərdi.

İkincisi, artıq mütləq mənada “lokal terrorla mübarizə” anlayışı mövcud gerçəkliyə uyğun deyildi. Yəni kimlər tərəfindən yaradılmasından asılı olmayaraq, hər hansı regionda bir dövlətə qarşı olan terror belə gözlənilmədən beynəlxalq təsirə malik ola bilər. Buna görə də siyasi şüurun dərinliklərində belə bir fikir oyandı: terror bütün forma və məzmununda beynəlxalq xarakterlidir, ona görə də onunla mübarizə də beynəlxalq səviyyədə olmalıdır!

Bu məqamda Türkiyə və Azərbaycanın terrorla mübarizə strategiyaları ortaq məqsəddə eyni istiqamətə yönəldi. Lakin Türkiyənin terrorla mübarizə tarixçəsi Azərbaycandan bir sıra məqamlarda fərqlənirdi, təməldə isə onlar eyni xüsusiyyətlərə malik olmuşlar. Faktlar bunu sübut edir.

## Türkiyə təcrübəsi

Türkiyənin terrorla üzləşməsi Osmanlıdan miras qalmışdır. Hələ XVII-XVIII əsrlərdə əsasən Qərb imperilaist dairələri Osmanlını daxildən parçalamaq üçün yavaş-yavaş cəmiyyətdə bir sıra imperiya təbəələrində radikal əhval-ruhiyyə yaratmağa başladılar. Bunu başlıca olaraq dini emissarlar xətti ilə edirdilər. Təbliğatın əsas məqsədi belə bir təsəvvür yaratmaq idi: “xristianlar cahil müsəlmanların hakimiyyəti altında yaşamamalıdırlar və onlar silahlı mübarizə ilə Osmanlıdan ayrılıb müstəqil dövlət yaratmalıdırlar”.

Təəssüf ki, Osmanlı bu qərəzli təbliğatın qarşısını ala bilmədi və artıq qısa müddətdə onun ərazisində başlıca olaraq ermənilərdən ibarət radikal qruplaşmalar formalaşmağa başladı. XVIII-XIX əsrlərdə bu proses çox genişləndi və imperiya üçün ciddi problemə çevrildi. O dövrdə fransız filosofu Qaston Başlyar yazırdı ki, Avropa erməni təbliğatının eyforiyası ilə şizofrenik olmağa başlamışdır. Çünki qəribədir ki, kimlərinsə təşkil etdiyi qondarma rəsmlər Avropanı türklərin vəhşi olduqlarına inandırmışdı. Məsələn, rəsmlərdə guya türklər ermənilərin başlarını kəsib, onlarla futbol oynadıqları yer alırdı. Bu prosesə Rusiya İmperiyası da qoşulandan sonra Osmanlı daxilində radikal qrupların terror aksiyalarına başlamasına əlavə təkan verdi.

Beləliklə, Osmanlı daxildən terror atəşinə tutuldu. Bu prosesdə məqsəd türk mədəniyyətini, kimliyini, demoqrafik xüsusiyyətlərini və dövlətçiliyini məhv etməklə yerində qondarma xristian dövlətini qurmaqdan ibarət idi. Əslində, Azərbaycana qarşı (o dövrdə Səfəviyə) terrorun da mahiyyətində vurğulanan məqamlar əsas təşkil etdiyindən, ümumi olaraq türklərə qarşı ortaq terror prosesindən danışa bilərik.

Deməli, 300 il bundan öncə indiki Türkiyə və indiki Azərbaycana qarşı terror faktiki olaraq təşkilati baxımdan beynəlxalq xarakterli idi, məqsəd isə bütövlükdə türk mədəniyyətini, kimliyini, demoqrafiyasını, coğrafiyasını və sonucda dövlətçiliyini məhv etməkdən ibarət idi. Bu ümumiliyin başlıca səbəbi hər iki dövlətin türk kökənli olması və İslamla bağlı idi. Bununla bütövlükdə türk milləti və ayrılıqda iki qardaş türk xalqı beynəlxalq terrorun hədəfinə gətirildi! Bu başlanğıcın sonrakı mərhələləri daha amansız əlamətlərlə xarakterizə olunur.

## “Parçala, məhv et!”

XIX əsrin ikinci yarısında Osmanlı erməni terroruna qarşı mübarizəni gücləndirdi. İndiki Türkiyə ərazisində ciddi zərbələr alan erməni terror dəstələri Azərbaycan coğrafiyasına sıxışdılar və ya Osmanlı bilərəkdən ora istiqamətləndirdi. Hər halda XIX əsrin sonuncu onilliyindən ermənilərin terror qrupları (“Armenakan”, “Qnçak” və “Daşnaksütyun”) XX əsrin əvvəllərində Azərbaycan coğrafiyasında aksiyaları genişləndirdilər.

1905-1907-ci illər terror, deportasiya, soyqırımı hadisələrinin həmin mərhələdə meydana gəlməsi bütün bunlara görə təsadüfi deyildi. XX əsrin başlanğıcından 1920-ci ilə qədər elə bir il olmamışdır ki, erməni terror qrupları Osmanlı və Azərbaycana qarşı terror törətməsinlər. Artıq 1918-ci ilə erməni terroru Osmanlı ilə birbaşa Azərbaycan hədəflərini siyasi və geosiyasi-coğrafi olaraq fərqləndirməyə qəti qərar vermişdi.

Konkret olaraq: Azərbaycan ərazisində erməni dövləti yaratmaq və Osmanlıya qarşı terror mübarizəsini davam etdirib, ondan ala biləcəyi əraziləri genişləndirmək. Burada başlıca hədəfin məhz tarixi Azərbaycan ərazilərində erməni dövləti yaratmaqdan ibarət olması bütövlükdə bizə qarşı olan terror dalğalarının əsas məzmununa təsir etdi. Azərbaycanın terrorla mübarizəsi də tədricən həmin təməldə Osmanlının və sonra Türkiyənin mübarizəsindən fərqlənməyə başladı.

Burada beynəlxalq miqyasda bu proseslərə böyük dövlətlərin gerçək münasibəti ilə bağlı bir özəlliyi mütləq vurğulamaq lazımdır. Çünki beynəlxalq terrorla mübarizə kontekstində Azərbaycanın düşdüyü vəziyyətin gerçək tərəflərini onsuz tam anlamaq mümkün deyildir.

## Vilson ssenariləri və erməni terrorunun təşviqçiləri

Birinci dünya müharibəsinin başa çatması ilə sülh müqaviləsinin layihəsini ABŞ-ın o dönəm prezidenti Vudro Vilson hazırlamışdır. 14 punktan ibarət olan layihəni V.Vilson 1918-ci il yanvarın 8-də Konqresə təqdim etmişdir. Bu proqramın bir hissəsi Versal Sülhünün əsasını təşkil etmişdir. Vilson prinsiplərində Millətlər Liqasının yaradılması da yer almışdı. Ona əsasən artıq 1919-cu ildə Liqa yarandı. Ondan əvvəl isə, böyük güclərin fəaliyyətində, Türkiyə və Azərbaycana aid olan, görün nələr baş vermişdir.

Böyük mənada Antanta və əks tərəf (“Üçlər İttifaqı”) I Dünya müharibəsinin nəticələrini rəsmiləşdirməyə girişmişdilər. Məhz bu mərhələyə ona görə xüsusi diqqət yetiririk ki, o dönəmdə geniş anlamda türk kimliyi, İslam dini, türk demoqrafiyası, mədəniyyəti və dövlətçiliyinə qarşı özlərini güclü və demokratik sayan bir qrup imperialist dövlətlər erməni terrorunu körükləmiş, qatı cinayətkar erməni təşkilatlarını hətta beynəlxalq miqyasda siyasi qurumlar kimi qəbul etmiş, onlara ayrıca dəstək saxlamışlar. Bunun fonunda isə Osmanlını parçalamış, artıq mövcud olmayan Səfəvi torpaqlarında, xüsusilə onun Azərbaycan coğrafiyasında qondarma erməni dövləti yaratmışlar. Hətta formal olaraq birtərəfli qaydada bir qrup erməni terrorçunun elan etdiyi “dövləti” (əslində süni və içi boş təbliğat alətini) I Dünya müharibəsinin iştirakçısı kimi ədəbiyyatlarda göstərməkdədirlər. Tarixi faktlara baxaq.

Birinci Dünya müharibəsi 1914-cü ilin 28 iyulunda başlamışdır. Onun rəsmi başa çatması tarixi kimi 11 noyabr 1918-ci ili göstərirlər. Birinci Ermənistan Respublikası dedikləri və Azərbaycan torpaqlarının bir qismi üzərində qondarılan saxta erməni dövləti de-fakto 1918-ci il mayın 28-də Tiflisdə elan edilmişdi. Bu, Zaqafqaziya demokratik Respublikasının dağılması sonrası olmuşdur (22 aprel 1918-ci il – 18 may 1918-ci il). Hələ özünün heç bir imkanı olmayan və özgə torpaqları üzərində terrorla qondarılan cırtdan bir süni ölkə böyük güclərin savaşdığı dünya müharibəsinin necə iştirakçısı ola bilərdi? Lakin terror baxımından ermənilərin havadarlarının bu hoqqasının konkret mənası vardır. “Ermənistan” adlandırdıqları qondarma dövlət üçün Osmanlı və Azərbaycandan yeni torpaqlar qoparmağın hüquqi-beynəlxalq əsasını yaratmalı idilər.

Bu o deməkdir ki, artıq 1918-ci ilin yayına imperialist dairələr erməni terroruna beynəlxalq hüquqa uyğunluq kimi cinayətkarcasına bir status vermişdilər. Məhz bu məqamın erməni terrorunun sonrakı 70 illik mərhələdə tüğyan etməsinə ciddi təkan verdiyini və indi də onun bəlasını çəkdiyimizi qətiyyətlə deyə bilərik. Yəni burada hansısa “erməni zəkası” və ya “erməni mübarizliyi”ndən danışmaq gülməlidir. Əksinə, ermənilər o qədər zəif və cılız məxluqlardır ki, dünyanın güclü dövlətlərinin onlar üçün yaratdıqları şəraitdə belə, qalib ola bilmədilər. Türklərin terrorla mübarizə strategiyası onların və havadarlarının belini qırdı!

## Başqa prizmadan baxış

İndi başqa prizmada XIX əsrin sonu XX əsrin 20-ci illərinə qədər olan müddətə baxaq. Qərb imperialist dairələri özlərindən “Ermənistan” uydurduqları dönəmdə Anadolu və Qafqazda erməni terroru tüğyan edirdi. Hər iki istiqamətdə sürətlə türkləri və ümumiyyətlə, müsəlmanları öz yurdlarından deportasiya edir, yaşadıqları məntəqələri xarabaya çevirir, süni inzibati bölgülər aparır, demoqrafik nisbəti dəyişir və dövlətçiliyi məhv edirdilər. Birinci dünya müharibəsi getdiyi müddətdə heç bir hüquqi statusu olmayan erməni quldur dəstələri azərbaycanlılara qarşı total soyqırımı törədir və onları öz yurdlarından (aborigen olduqları ərazilərdən) qovurdular. 1918-ci ildə bəşəriyyət dünya müharibəsini sonlandırmağın qayğısına qalanda erməni terrorçular havadarlarının dəstəyi və planı ilə misli görünməmiş 1918-1920-ci illər soyqırımı-deportasiyasını həyata keçirdirlər.

Təsəvvür edək, eyni müddətdə dünya müharibəsi çərçivəsində imperilasit dairələr erməni terror qruplarının azərbaycanlılara (ümumiyyətlə, türk müsəlmanlara) qarşı misli görünməmiş terror törətmələri üçün “hüquqi” baza yaratmaqla məşğul olmuşlar. Bu tezis ideoloji təbliğat deyildir. Konkret rəsmi sənədlərə və həmin dövrdə baş verən siyasi hadisələrə əsaslanaraq bu nəticəni çıxarırıq.

Faktlar göstərir ki, həmin dönəmdə rəsmi sənədlərdə bir dəfə də olsun “Azərbaycan” dövlət kimi yer almamışdır. Cəmi bir nəsələdə “böyüklər” Azərbaycana, Türkiyəyə, Gürcüstana və “Ermənistana” məsləhət görürlər ki, sərhədləri danışıqlar yolu ilə müəyyən etsinlər (həmin sənəd haqqında irəlidə bəhs edəcəyik). Bu da artıq faktiki olaraq terrorla zəbt edilmiş Azərbaycan torpaqlarının ermənilərin adına hüquqi “qeyd olunması” prosesini başa çatdırmaq demək idi.

Bütün bunlar beynəlxalq münasibətlərin Versal-Vaşinqton sisteminin formalaşdırılması çətiri altında baş verirdi. Həmin sistemin bir hissəsini V.Vilson prinsipləri təşkil etmişdir. O prinsiplərin ümumi sayı 14-dür. 12-ci prinsip belədir: “Osmanlı imperiyası türkləri müasir tərkibdə təmin olunmuş və möhkəm suverenlik almalıdırlar, ancaq digər milliyyətlərdən olanlar... muxtar inkişaf etmənin mütləq təminatını almalıdırlar”. Başqa heç bir məğlub olmuş dövlət üçün “başqa milliyyətdən olanlar mütləq muxtariyyat almalıdılar” punktu nəzərdə tutulmamışdı.

Polşa tam müstəqil dövlət olmalı, Almaniya zəbt etdiyi və özünə aid olmayan torpaqları tərk etməli idi. Yalnız Osmanlı tərkibində olan qeyri-müsəlmanlar üçün muxtariyyata icazə verilməli idi, yəni gələcəkdə onların müstəqil dövlət olması üçün hüquqi baza yaradılmalı idi. Sevr müqaviləsi göstərdi ki, V.Vilsonun bu prinsipi çox təhlükəli nəticələr verə bilər.

Bunun üçün Birinci Cahan Savaşından sonra dünya nizamının hüquqi bazasını təşkil etməli olan beynəlxalq münasibətlərin Versal-Vaşinqton sisteminin beş əsas sənədinə baxmaq lazımdır. Onlar aşağıdakılardır: Versal sülh müqaviləsi (1919), Sen-Jermen Sülh müqaviləsi (1919), Nyöyi-syür-Sen (frans. Neuilly-sur-Seine, Parisin şəhərətrafı qəsəbələrindən biri) Sülh müqaviləsi (1919), Trianon Sülh müqaviləsi (1920) və Sevr Sülh müqaviləsi (1920).

Diqqət edək: dünya düzəninin əsasını təşkil etməli olan həmin sənədlər 1919-1920-ci illərdə hazırlanmışdır. Bu illər bizim yaddaşda necə qalmışdır? Birmənalı olaraq azərbaycanlıların kütləvi qırğınlara, deportasiyalara məruz qaldığı illərdir. Bircə faktı yada salmaq kifayətdir. 31 Mart azərbaycanlıların soyqırımı 1918-ci ildə baş vermişdir. Əhatə dairəsi: Bakı, Bakı quberniyası, Göyçay, Şamaxı, Quba, Xaçmaz¸ Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Borçalı, Qarabağ, Naxçıvan və digər ərazilərimiz. Bu kütləvilikdə cinayət vurğulanan sənədlərdə yer almışdırmı?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Azərbaycan və Çin arasında münasibətlər strateji əməkdaşlıq səviyyəsinə yüksəlib. İki ölkə arasındakı əlaqələr yalnız rəsmi səfərlər və sənədlərlə məhdudlaşmır, ticarət, energetika, nəqliyyat, turizm və humanitar sahələrdə də konkret nəticələrlə özünü göstərir. Azərbaycanın yerləşdiyi coğrafi mövqe və Çinin qlobal təşəbbüsləri fonunda bu əməkdaşlıq qarşılıqlı maraqlara əsaslanır və davamlı inkişaf dinamikasına malikdir.**

# Çinə də vizasız gedirik

## *Bu, Azərbaycanın Asiya nəhəngi ilə münasibətlərinin üstün göstəricisidir*




İkitərəfli münasibətlərin müsbət tendensiyaya malik olmasının nəticəsidir ki, Azərbaycanla Çin arasında viza rejimi ləğv edilib. Bu, həm də iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərir. Qeyd edək ki, Prezident İlham Əliyevin Çinə səfəri zamanı imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş” artıq iyulun 17-dən etibarən qüvvəyə minib. Bu, təkcə iki dövlət arasında hüquqi prosedurların sadələşdirilməsi deyil, eyni zamanda, strateji tərəfdaşlığın dərinləşdirilməsinə yönəlmiş mühüm addımdır.

Sənədə əsasən, Azərbaycan və Çin vətəndaşları qarşılıqlı olaraq 30 günə qədər vizasız səfər edə biləcəklər. Hər bir səfərin müddəti 30 günü, ümumilikdə isə bir il ərzində 180 günü keçməmək şərtilə ölkələr arasında sərbəst gediş-gəliş mümkün olacaq. Bu, ilk növbədə vətəndaşların səyahət imkanlarını genişləndirəcək, insan təmaslarını artıracaq və diplomatik əlaqələrin inkişafına yeni impuls verəcək.

Strateji tərəfdaşlıq çərçivəsində imzalanan bu saziş humanitar və iqtisadi əlaqələrin genişlənməsi üçün də geniş imkanlar açır. Viza rejiminin ləğvi nəticəsində qarşılıqlı turizm axınında ciddi artım gözlənilir. Turistlərin sayının artması isə həm xidmət sektorunun inkişafına, həm də yeni iş yerlərinin yaranmasına şans verəcək. Yada salaq ki, Çin hazırda dünyanın ən böyük turist ixracatçısı kimi beynəlxalq bazarda mühüm rol oynayır. Çin vətəndaşlarının xaricə səyahət statistikası göstərir ki, bu ölkədən gələn turistlər, sayları az olsa belə, turizm imkanlarına malik dövlətlər üçün mühüm iqtisadi faydalar verir. Başqa sözlə, çinli turistlərin səfər etdiyi ölkələr üçün bu, gəlir və inkişaf baxımından böyük fürsətdir. O baxımdan Çin turistlərinin cəmi 1 faizinin, təxminən, 1,5 milyon nəfərin Azərbaycana gəlməsi ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər.

Çinli turistlər səyahət zamanı orta məbləğdə vəsait xərcləyən qrup kimi də tanınır. Dünya Bankı və Ümumdünya Turizm Təşkilatının məlumatlarına əsasən, bir çinli turistin orta xərci 1000–1500 dollar arasında dəyişir. Bu göstəriciyə əsasən 1,5 milyon turistin Azərbaycana gəlməsi ölkəmizə ildə 1,5–2,25 milyard dollar qazandıra bilər.

Bunlar perspektiv üçün nəzərdə tutulan göstəricilərdir. Ötən il Çindən Azərbaycana gələn turistlərin sayı 1,9 dəfə artaraq 45 minə çatıb. Bu ilin ilk rübündə isə Çindən Azərbaycana gələnlərin sayı 1,8 dəfə artıb. Yəni, artım tempi gələcəyə böyük ümidlər yaradır.

Onu da qeyd edək ki, turizmin inkişafı yalnız iqtisadi amil deyil, eyni zamanda, mədəni irsin qorunması və tanıdılması baxımından da əhəmiyyətlidir. Azərbaycan və Çin kimi qədim sivilizasiyalara malik ölkələr arasında bu sahədə əməkdaşlığın dərinləşməsi mədəni mübadilələrin daha da artmasına səbəb olacaq.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı Fatma Yıldırım XQ-yə** bildirdi ki, vizasız rejim, eyni zamanda, sahibkarlıq və biznes dairələri arasında əlaqələri intensivləşdirəcək, ortaq layihələrin həyata keçirilməsinə zəmin yaradacaq: “Vizasız rejim, həmçinin işgüzar dairələrin hərəkətliliyini artıracaq, sərmayə yatırımlarını təşviq edəcək və iki xalq arasında birbaşa təmasların inkişafına töhfə verəcək. Bu, həm də sahibkarlar və investorlar üçün qarşılıqlı səfərlərin qısa zamanda həyata keçirməsi deməkdir. Həmçinin real vaxtda bazar araşdırmaları, yerli tərəfdaşlarla birbaşa danışıqlar aparmaq və əməkdaşlıq imkanlarını dəyərləndirmək baxımından böyük üstünlükdür. Azərbaycanla Çin arasında ticarət dövriyyəsinin artması və yeni iqtisadi əməkdaşlıq formatlarının qurulması üçün vizasız rejim mühüm hüquqi təminat və praktiki alətdir”.

Onu da qeyd edək ki, Çin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Daha doğrusu, 4-cü ən böyük ticarət tərəfdaşıdır. Bu ilin yanvar-aprel aylarında Azərbaycan və Çin arasında ticarət dövriyyəsi 37 faiz artaraq 1,4 milyard dolları keçib. Hazırda Azərbaycanın ticarət və şərab evləri Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan Ticarət Evi Çinin məşhur e-kommersiya platforması olan “JD”ə də aktivdir. Bu mərkəzlər ikitərəfli ticari münasibətlərin inkişafına töhfə verirlər. Çin şirkətləri ölkəmizdə geniş miqyasda təmsil olunurlar. Cari il may ayının 1-nə olan statistikaya görə, Azərbaycanda 320-yə yaxın Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sektorlarında fəaliyyət göstərir. Bundan sonra bu fəaliyyət sahələri daha da genişlənəcək. Eyni zamanda, kiçik və orta sahibkarlıq (KOS) subyektləri üçün vizasız rejim ciddi imkanlar açacaq. Əvvəllər yalnız iri şirkətlərin resursları hesabına reallaşa bilən xarici bazara çıxış imkanı artıq daha geniş sahibkar təbəqəsi üçün mümkün olacaq. Bu da ümumilikdə hər iki ölkənin iqtisadiyyatında rəqabət mühitini genişləndirəcək, innovasiyaların tətbiqini sürətləndirəcək və yeni iş yerlərinin açılmasına səbəb olacaq”.



Vizasız rejimin təhsilə də müsbət təsir göstərəcəyini vurğulayan deputat tələbə mübadiləsinin artmasının, iki ölkə arasında akademik əlaqələrin güclənməsinin və mədəni əməkdaşlığın dərinləşməsinin gözlənildiyinə diqqət çəkdi: “Bütün bunlarla yanaşı, vizasız rejim “Bir kəmər, bir yol” təşəbbüsü çərçivəsində Azərbaycanın tranzit ölkə rolunu daha da gücləndirəcək. Çinlə Avropa arasında körpü rolunu oynayan Azərbaycan üçün bu, həm iqtisadi, həm də geosiyasi çəkisinin artması deməkdir”.

Fatma Yıldırım sonda onu da dedi ki, viza rejiminin ləğvi iki ölkə arasında, sadəcə, texniki deyil, siyasi, iqtisadi və mədəni baxımdan böyük əhəmiyyət daşıyan qərardır: “Bu addım Azərbaycanla Çin arasında etimada əsaslanan münasibətlərin möhkəmləndirilməsinə, qarşılıqlı hörmət və əməkdaşlıq əsasında daha genişmiqyaslı layihələrin həyata keçirilməsinə zəmin yaradır.

Hesab edirəm ki, intensiv qarşılıqlı səfərlər vasitəsilə müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi mümkün olacaq. Bu isə hər iki tərəf üçün iqtisadi dividendlərin əldə olunması deməkdir”.

***P.ƏFƏNDİYEV***
***XQ***

# “Yüksəliş” müsabiqəsinin final mərhələsi başlanıb



**İyulun 18-də “Bakı Ekspo Mərkəzi”ndə “Yüksəliş” müsabiqəsinin beşinci mövsümünün final mərhələsinə start verilib.**

Açılış mərasimində müsabiqənin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, maliyyə naziri Sahil Babayev, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, gənclər və idman naziri Fərid Qayıbov, gənclər və idman nazirinin müavini, “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, qaliblər və finalçılar iştirak ediblər.

Açılış mərasimində çıxış edənlər “Yüksəliş” müsabiqəsinin ölkədə idarəetmə potensialına malik, peşəkar və perspektivli kadrların seçilməsi və inkişafında oynadığı mühüm rolu vurğulayıblar. Qeyd edilib ki, 2019-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan “Yüksəliş” müsabiqəsi bu gün artıq milli insan kapitalı siyasətinin mərkəzi alətlərindən birinə çevrilib. Bu təşəbbüs idarəetmə sahəsində davamlı inkişafa xidmət edir. Beşinci mövsümün final mərhələsi də bu konseptin davamı kimi dəyərləndirilib və müsabiqənin ölkə üçün strateji əhəmiyyəti bir daha önə çəkilib.

Müsabiqənin builki konsepti Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması ilə əlaqələndirilib. Eyni zamanda, 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin beşinci ildönümü və “Yüksəliş” müsabiqəsinin beşinci mövsümü eyni ilə təsadüf edir.

Qeyd edək ki, final mərhələsinə hazırlıq çərçivəsində qiymətləndirici ekspertlər üçün üçgünlük təlim proqramı təşkil olunub. Təlimlərə 55 ekspert cəlb edilib. Qiymətləndirmə prosesi beynəlxalq təcrübəyə əsaslanan və obyektivliyi ilə seçilən “Qiymətləndirmə konfransı”(Assessment Conference) metodu ilə həyata keçirilir. Bu metod hər bir iştirakçının performansına çoxşaxəli yanaşmanı təmin edir və yekun qərarların kollegial əsasda verilməsinə imkan yaradır. Final mərhələsində iştirakçılar “İdarəçi rollar modeli” üzrə fərqli situasiyaları həll etməklə öz bilik və idarəetmə bacarıqlarını nümayiş etdirəcəklər.

Üç gün davam edəcək bu mərhələdə əvvəlki dörd mərhələni uğurla tamamlayan 124 iştirakçı mübarizəyə qatılıb. Final mərhələsi iyulun 20-də başa çatacaq və ölkənin ən istedadlı kadrları arasında növbəti qaliblər müəyyən olunacaq. Bununla da beşinci “Yüksəliş” müsabiqəsi yekunlaşacaq.

# Qaz şəbəkəsində ağıllı idarəetmə



**Azərbaycan Dövlət Neft Şirkətinin “Azəriqaz” İstehsalat Birliyi və Birləşmiş Ərəb Əmirliklərinin “Esyasoft Holding” LTD şirkəti arasında ağıllı qaz şəbəkəsinin layihələndirilməsi, qurulması və istifadəyə verilməsi haqqında müqavilə imzalanıb.**

Layihənin əsas məqsədi qabaqcıl ağıllı qaz idarəetmə sistemi texnologiyalarının tətbiqi sayəsində Azərbaycanın ərazisində qazın paylanması sahəsində əməliyyat səmərəliliyini artırmaq, xərcləri optimallaşdırmaq, mövcud qaz itkilərini azaltmaq, habelə “Azəriqaz” İB-nin göstərdiyi xidmətlər üzrə müştəri və vətəndaş məmnunluğunu yüksəltməkdir. Bu barədə Dövlət Neft Şirkətindən məlumatı verilib.

Bildirilib ki, layihə 2,5 milyon ağıllı sayğacın quraşdırılması və sistemə dəstək mərhələləri nəzərə alınmaqla, təxminən, 14 illik dövrü əhatə edəcək. Bu dövr ərzində 480 milyon ABŞ dolları sərmayənin yatırılması nəzərdə tutulur. Həmin vəsait yaxın gələcəkdə şəbəkənin rəqəmsallaşdırılması, ağıllı təzyiq və temperatur sensorlarının quraşdırılmasının, “Rəqəmsal həllər laboratoriyası”nın yaradılmasının, əməkdaşların qabaqcıl texnologiyalar üzrə təliminin və beynəlxalq təcrübə mübadiləsinin təşkilinin, süni intellektin tətbiqi, məlumatların Hökumət buludunda yerləşdirilməsi ilə informasiya təhlükəsizliyinin təmin olunmasının, eləcə də müasir texnologiyalarla təchiz edilmiş idarəetmə mərkəzinin qurulmasının mümkünlüyünə imkan verəcək. Bununla yanaşı, istehlakçılar daha dəqiq hesablama, real vaxt rejimində istifadə monitorinqi, problemlərin sürətli həlli, uzaqdan xidmət və rəqəmsal platformalar vasitəsilə istehlak məlumatlarına asan çıxış kimi üstünlüklər əldə edəcəklər.

Xatırladaq ki, ötən il Bakıda keçirilən COP29 çərçivəsində SOCAR ilə “Esyasoft Holding” LTD arasında imzalanmış əməkdaşlıq sazişinin davamı olan bu müqaviləni SOCAR prezidenti Rövşən Nəcəf, “Azəriqaz” İB-nin baş direktoru Azər Məmmədov və “Esyasoft Holding” LTD-nin baş icraçı direktoru Bipin Çandra imzalayıblar.

# Sahibkarların sənaye zonalarına marağı artır

**Bu ilin birinci yarısında İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyindəki sənaye zonalarında investisiya portfeli 307 milyon manatdan çox olan 18 sahibkarlıq subyektinə rezidentlik, 3 sahibkara isə qeyri-rezidentlik statusu verilib.**



Sahibkarlıq subyektlərinin 3-ü Ağdam Sənaye Parkının, 5-i “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının, 3-ü Sumqayıt Kimya Sənaye Parkının, 5-i Hacıqabul Sənaye Parkının, 1-i Masallı Sənaye Məhəlləsinin, 1-i Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb. Eyni zamanda, Ağdam, Hacıqabul və “Araz Vadisi İqtisadi Zonası” sənaye parklarında hər biri üzrə 1 olmaqla, ümumilikdə, 3 sahibkarlıq subyekti isə qeyri-rezidentlik statusu alıb.

Qeydiyyatdan keçən investorlar sənaye zonalarında smart televizorlar, velosiped, elektrik mühərrikli avtobuslar, lift və eskalatorlar istehsalı layihələri həyata keçirəcək, tekstil sahəsində klasterləşmə formalaşdırılacaq, günəş elektrik stansiyası quracaq.

Sənaye zonalarının inkişafı məqsədilə yaradılan əlverişli şərait bu istehsal müəssisələrində buraxılan məhsulun ixracını da şərtləndirib. Məsələn, Sumqayıt Kimya Sənaye Parkının rezidenti “Azertexnolayn” MMC tərəfindən ilk dəfə olaraq Yunanıstana iki başlı suvarma hidrantların ixracı həyata keçirilib. Şirkət tərəfindən bu ölkəyə birinci mərhələdə dəyəri 100 min manatdan çox məhsul göndərilib.

Qeyd edək ki, 2013-cü ildə Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınan “Azertexnolayn” MMC müxtəlif diametrli polad borular, yüksək təzyiqə davamlı hidrotexniki avadanlıqlar, eləcə də xüsusi təyinatlı polietilen boruların istehsalını həyata keçirir. Hazırda müəssisədə 60-dan çox çeşiddə məhsul istehsal olunur. Müəssisənin məhsulları daxili bazara satılmaqla yanaşı, dünyanın 25-dən çox ölkəsinə ixrac edilir.

Xatırladaq ki, Azərbaycan iqtisadiyyatının əsas prioritetlərindən biri qeyri – neft sektorunun inkişaf etdirilərək dayanıqlı və inklüziv iqtisadi artıma nail olmaqdır. Bu məqsədlə həyata keçirilən islahatlar çərçivəsində iqtisadi fəallığın artırılması, yerli istehsalın gücləndirilməsi, ixrac potensialının genişləndirilməsi və məşğulluq imkanlarının artırılması istiqamətində mühüm addımlar atılır. Xüsusilə sənaye parklarının yaradılması və bu parkların müasir istehsalat infrastrukturuna malik olması ölkənin sosial – iqtisadi inkişafına mühüm töhfələr verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə sənayeləşmə siyasəti məqsədyönlü şəkildə həyata keçirilir. Bu siyasətin əsas istiqamətlərindən biri kimi sənaye parklarının təşkili, onların infrastrukturla təmin olunması və rezidentlərin cəlb edilməsi prosesi son illərdə böyük vüsət alıb. Hazırda Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, Mingəçevir və Pirallahı sənaye parkları, eyni zamanda, Neftçala, Masallı, Sabirabad və Hacıqabul sənaye məhəllələri qeyri-neft sektorunda çoxsaylı istehsalat müəssisələrinin fəaliyyət göstərdiyi əsas mərkəzlərə çevrilib.

Sənaye parklarında fəaliyyət göstərən müəssisələr yüksək texnologiyalara əsaslanan, müasir avadanlıqlarla təchiz olunan istehsalat sahələri ilə seçilir. Bu isə yerli məhsulların həm daxili, həm də xarici bazarlarda rəqabət qabiliyyətini artırır. Məsələn, Sumqayıt Kimya Sənaye Parkında istehsal edilən plastik, gübrə, mis və elektrik avadanlıqları təkcə daxili tələbatı ödəməklə kifayətlənmir, həm də bir sıra Avropa və Asiya ölkələrinə ixrac olunur. Bu proses ölkəmizin ixrac strukturunda qeyri – neft sektorunun payını artırmaqla yanaşı, xarici valyuta daxilolmalarına da yüksəldir.

Sənaye parklarının ölkə iqtisadiyyatına verdiyi ən mühüm töhfələrdən biri də məşğulluğun artırılmasıdır. Hər bir park və sənaye məhəlləsi onlarla müəssisəni özündə birləşdirir və minlərlə vətəndaş üçün daimi iş yeri yaradır. Dövlət tərəfindən dəstəklənən bu layihələr xüsusilə regionlarda işsizlik probleminin aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Bu isə, öz növbəsində, sosial sabitliyin möhkəmlənməsinə və regionların tarazlı inkişafına xidmət edir.

Sənaye parklarında investorlar üçün yaradılan əlverişli şərait – vergi güzəştləri, hazır infrastruktur, sürətli qeydiyyat prosedurları və dövlət dəstəyi sahibkarların marağını daha da artırır. Bu mühit xarici investisiyaların da cəlb olunmasını stimullaşdırır. Son illərdə bir sıra beynəlxalq şirkətlər Azərbaycanda sənaye parklarına sərmayə yatıraraq istehsalat qurublar ki, bu da ölkənin sənaye bazasını daha da şaxələndirir.

Əlverişli istehsalat mühiti ilə yanaşı, sənaye parklarında rəqəmsallaşma və “yaşıl” texnologiyaların tətbiqi də diqqət mərkəzində saxlanılır. Bu sahələrdə aparılan yeniliklər istehsal proseslərinin səmərəliliyini artırmaqla yanaşı, ekoloji təhlükəsizliyi də gerçəkləşdirir. Ekoloji təmiz texnologiyaların tətbiqi, tullantıların azaldılması və enerji səmərəliliyi üzrə görülən tədbirlər müasir sənaye fəlsəfəsinə uyğun inkişafa xidmət edir.

Ümumilikdə, Azərbaycanda sənaye parklarının inkişafı təkcə iqtisadi fəallığın artırılması baxımından deyil, həm də regionlarda sosial rifahının yüksəldilməsi, texnoloji yeniliklərin təşviqi, yerli istehsalın dəstəklənməsi və qeyri – neft ixracının genişləndirilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb edir. Dövlətin bu sahəyə davamlı dəstəyi və strateji yanaşması yaxın illərdə sənaye parklarının daha da genişlənəcəyinə, yeni iş yerlərinin açılacağına və Azərbaycanın qeyri – neft sektorunun daha da güclənəcəyinə zəmin yaradır.

Ölkə iqtisadiyyatının, qeyri – neft sektorunun inkişafına xüsusi dinamizm gətirən sənaye parklarında innovativ və yüksək texnologiyaların tətbiqi, dövlət tərəfindən müxtəlif stimullaşdırıcı layihələrin həyata keçirilməsi daim diqqətdə saxlanılır. Vergi qanunvericiliyinə edilmiş dəyişikliklərə əsasən, sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər.

Rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq və mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı əlavə dəyər vergisindən, eləcə də gömrük rüsumundan azad olunublar. Ölkəmizin işğaldan azad edilmiş ərazilərində yaradılmış sənaye zonalarında fəaliyyət göstərən sahibkarlar da istehsal prosesində istifadə etdikləri bir sıra xammal və materialların idxalına görə 10 il müddətinə əlavə dəyər vergisindən azad ediliblər.

Bununla yanaşı, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 10 il müddətində hər ay istehlak olunan kommunal xidmətlərin (elektrik enerjisi, təbii qaz, su təchizatı və tullantı sularının axıdılması xidməti) tariflərinə uyğun olaraq ödədikləri vəsaitin 20 faizi qədər dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödənilir.

Sənaye zonaları iş adamlarının investisiya yatırmaları baxımından ən əlverişli biznes platformasıdır. Burada sahibkarlıq fəaliyyətinin inkişafı üçün hər cür investisiya imkanları formalaşdırılıb. Belə ki, sənaye zonalarında sahibkarlar dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin edilirlər. Sahibkarlıq subyektləri “Plug and Play” prinsipindən yararlanmaqla sənaye zonalarında öz biznes layihələrini həyata keçirə bilirlər.

# AZSTAND beynəlxalq standartlaşdırma layihəsində



**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyindəki Azərbaycan Standartlaşdırma İnstitutu (AZSTAND) Beynəlxalq Standartlaşdırma Təşkilatının təşkil etdiyi “Süni intellekt idarəetmə və standartlarında bacarıqların artırılması” layihəsinə qoşulub.**

AZSTAND-dan bildirilib ki, layihədə ölkəmizlə yanaşı, ABŞ, Baham Adaları, Braziliya, Böyük Britaniya, Cənubi Afrika, Cənubi Koreya, Kanada, Hindistan, İndoneziya, Misir, Malayziya, Niderland Krallığı, Səudiyyə Ərəbistanı və Uqanda iştirak etmək hüququ qazanıb.

Layihənin əsas məqsədi maraqlı tərəflərin süni intellektin idarə olunması sahəsində beynəlxalq və milli standartlara uyğun ən yaxşı tənzimləmə nümunələri barədə məlumatlandırılması, həmçinin süni intellekt siyasəti, eləcə də standartları üzrə təcrübə mübadiləsinin artırılmasıdır.

Yeri gəlmişkən, AZSTAND cari ilin I yarısında 100 yeni dövlət standartı qəbul edib. Bu normativ sənədlər müxtəlif sahələr üzrə istehlak olunan məhsulların, məhsul istehsalı ilə bağlı proseslərin və istehsal metodları təhlükəsizliyinin, eləcə də məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına və yeni texnologiyaların tətbiqinə şərait yaradır.

Xatırladaq ki, yanvar – iyun aylarında qida texnologiyası və kənd təsərrüfatı üzrə 29, tikinti materialları üzrə 9, informasiya, telekommunikasiya və elektrotexnika sahələri üzrə 17, neft-qaz və əlaqəli texnologiyalar üzrə 9, ətraf mühit üzrə 9, nəqliyyat sahəsi üzrə 6, idarəetmə və keyfiyyət üzrə 2, rezin və plastik sənaye üzrə 2, zərgərlik sahəsi üzrə 1, tekstil və dəri texnologiyası üzrə 16 dövlət standartı qəbul edilib. Bundan başqa, 6 ay ərzində 50 dövlət standartının dövrü yoxlanılması aparılıb və ya dəyişikliklər edilib, 44 dövlət standartı ləğv olunub. Sahibkarların sifarişi əsasında 68 texniki şərt hazırlanıb və ekspertiza edilərək dövlət qeydiyyatına alınıb.

# Azərbaycan 18 ölkəyə neft satır

**Bu ilin yanvar-iyun aylarında Azərbaycandan 18 ölkəyə 12 milyon 46 min 352,54 ton həcmində neft ixrac olunub. Hesabat dövründə Azərbaycanın neft ixrac etdiyi TOP-10 ölkələr sırasına İtaliya, Çexiya, Xorvatiya, Rumıniya, Portuqaliya, Almaniya, Böyük Britaniya, İrlandiya, Yunanıstan və Niderland daxil olub. Bu barədə məlumat Dövlət Gömrük Komitəsinin hesabatında yer alıb.**



Bildirilib ki, cari ilin 6 ayında Azərbaycan İtaliyaya 3 milyard 602 milyon 341,97 min ABŞ dolları dəyərində 6 milyon 820 min 798,97 ton, Çexiyaya 449 milyon 595,51 min dollar dəyərində 846 min 461,39 ton, Xorvatiya 408 milyon 862,68 min dollar dəyərində 744 min 703,91 ton xam neft ixrac edib. Bundan əlavə, ilin birinci yarısında ölkəmizdən Rumıniyaya 378 milyon 39,37 min dollar dəyərində 685 min 972,26 ton və Portuqaliyaya 310 milyon 369,1 min dollar məbləğində 576 min 34,89 ton neft tədarük edilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Əkinçi”nin milli gerilik və erməni millətçiliyi ilə mübarizəsi

**1875-ci il iyul ayının 22-də Azərbaycan dilində nəşrə başlayan, 1877-ci il avqust ayının 18-də son nömrəsinin çapı ilə 25 aylıq fəaliyyətini dayandıran “Əkinçi” qəzeti milli mətbuatımızın özül tarixini yazdı. Bu qəzetin ilk milli mətbu nəşr kimi fəaliyyətə başlaması mədəni tariximizə onun təsisçisi və baş yazarı Moskva Universitetinin məzunu, Bakı gimnaziyasının təbiət müəllimi, 33 yaşlı maarifçi ziyalı Həsən bəy Zərdabinin həyat missiyasının ən yaddaqalan hadisəsi kimi daxil oldu.**

Həsən bəy xalqımız üçün yeni başlanğıc olan bu işə – qəzet buraxılışına ana dilini öyrədən bir məktəb kimi baxırdı: “Qəzet və ya jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir”. “Əkinçi”nin meydana gəlməsində Həsən bəy Zərdabi ilə yanaşı, XIX əsrin ikinci yarısında Azərbaycanda intişar tapmağa başlayan maarifçilik mühitinin, onun yaranmasına təkan verən ictimai-siyasi proseslərin oynadığı rolu da qeyd etməyi lazım bilirik. Böyük maarifçi, türk-müsəlman xalqlarını əhatə edəcək əlifbanın nəinki ən qızğın təbliğatçısı, yeni əlifba layihəsinin müəllifi Mirzə Fətəli Axundovla başlanan, Azərbaycan ictimai şüurunda özünü hiss etdirən renesans mərhələsinin diqtə etdiyi məqamları unutmamağı vacib sayırıq.

Təhsil sahəsində, xüsusilə imperiya hüdudlarındakı xalqların təhsilə təşviqi ilə bağlı mərkəzi hakimiyyətin yürütdüyü işıqlı siyasətin nəticəsində məktəblərdə ana dilində tədrisin həyata keçirilməsi işi ləng də olsa olsa gedir, renesansın dayanıqlılığını təmin edirdi. Yeri gəlmişkən, Azərbaycan dilində fəaliyyətə başlayan dünyəvi məktəblərin ilk rüşeymləri ölkəmizdə məhz XIX əsrin 60-cı illərində gözə dəyirdi. Bütün bunlar milli burjuaziyamızın formalşma mərhələsini yaşayan Azərbaycanın dialektik inkişafında mühüm sayılan amillər idi. Buna görə də cəsarətlə milli mətbuatımın yaranmasını XIX əsrin ikinci yarısı üçün gözlənilən hadisə adlandıra bilərik. Ola bilər ki, o, 1875-ci ilin yayında deyil, bir, iki, hətta beş il tez və yaxud gec baş verəydi, o da tamamilə mümkün idi ki, həmin nəşrin təsisçisi Həsən bəy Zərdabi deyil, başqası da ola bilərdi. Amma reallıq odur ki, bu möhtəşəm hadisənin baş verməsi üçün zəmin yaranmışdı.

“Əkinçi”nin ilk nömrəsindəki baş məqalədə qəzetin təsisçisi və redaktoru Həsən bəy Zərdabinin yazdığı məqalədə nəşrin məramnaməsinə diqqət çəkilir, materialların “Daxiliyyə xəbərləri”, “Əkin və ziraət xəbərləri”, “Təzə xəbərlər”, “Elanlar” rubrikası altında gedəcəyi qeyd olunurdu. Qəzetin bir neçə nömrəsinin çapından sonrakı nömrələrində digər rubrikaya ehtiyac yarandı. Bu, “Məktubat” rubrikası idi və bu bölümdə verilən yazılarda nəhayətsiz görünən imperiya sərhədləri daxilində, əsasən soydaşlarımız yaşayan məkanlardan istənilən şəxs ictimai rəy üçün əhəmiyyət kəsb edən hadisələrdən və yaxud insanlarımızı tərəqqidən saxlayan məsələlərdən söz açılırdı.



“Əkinçi” qəzetində mövzuların rəngarəngliyinin artması ilə yanaşı, Azərbaycan jurnalistikasında ilkin ənənələr də ormalaşırdı. Bu prosesdə dramaturgiyamızın banisi böyük Mirzə Fətəli Axundov, şair Seyid Əzim Şirvani, Səid Ünsizadə, Nəcəf bəy Vəzirov, Qarabağ xanlarının nəslindən olan Əsgər ağa Gorani, Əhsənül Qəvaid və digər “Millətı – islami qəflətdən ayıltmaq istəyən”, bunun üçün özündə potensial görən və həmin potensialı cəmiyyətdə etiraf edilən azsaylı ziyalılarımız qoşulmuşdu.

“Əkinçi” meydana qədəm badığı məqamdan ancaq bir cəbhədə döyüşmürdü. Onun döyüşdüyü insanlar təkcə milləti buxovda saxlamağın elmsizlik, cəhalət olduğunu bilən və bunu aradan qaldıranlarla ölüm-qalım savaşına çıxanlar deyildi. Həmin əsrin 20-ci illərinin sonlarında Rusiya imperiyasının uzağagedən planlarına həsablanan və buna görə də Güney Qafqaza, xüsusilə İrəvan xanlığının ərazilərinə köçürülən erməni millətindən olan insanlar milli münaqişənin ocaqlarını yaratmaqda idilər. Oxşar proseslərdə olduğu kimi, bunun “tarixi kökləri”nin ideoloji əsasları yaradılırdı və bu işi erməni ziyalıları arasında görmək istəyənlər kifayət qədər tapılırdı.

Belə “millətsevərlərdən” biri, erməni millətindən olan, Moskvada doğulub böyüsə də, Tiflisdə qərarlaşan Qriqori Artsruni idi. Onun təsis etdiyi, özünün redaktorluğu ilə 1873-cü ilin fevral ayından nəşrə başlayan “Mşak” qəzetinin qəzetin 14-cü nömrəsində “Qandzak” (tarixən azərbaycanlılara aid olan Gəncə həmin yazıda belə təqdim edilirdi) sakinlərinin aborigen əhalisinin ermənilər olması ilə bağlı dərc edilmiş “araşdırma yazısı”nda mahalda əsasən ermənilərin yaşadığı iddia edilirdi: “Onlar öz ana dili ilə sıx bağlıdırlar, həm də qonşularının dilində yaxşı danışırlar; xalq öz kilsəsinə sadiqdir, kilsə adət-ənənələrini qeyrətlə qoruyur, milli xeyriyyə işlərini hərarətlə, səxavətlə dəstəkləyir”.

Millətçi redaktor sonra bildirirdi ki, burada türklərin sayı 1800 nəfərdir, ermənilərdən çoxdur, lakin təsir gücündə deyil. Onların həyat tərzi Asiya tayfalarına xasdır. Onların sosial dünyagörüşünü qiymətləndirmək artıqdır, lakin onların təhsil vəziyyətinin son dərəcə əlverişsiz olduğunu qeyd etmək lazımdır. Onların yeganə məktəbi məsciddir. Mirzə və ya molla bir neçə oğlanı başına yığıb kobud səslə yerdə oturan oğlanlara dərs keçirlər. Onlar nə öyrənirlər? Çox dəhşətli keyfiyyətlər...



Oxşar mövzuda yazılaraq qəzetdə dərc edilən məqalələr təkcə yazı müəlliflərinin, heç o yazıları sifariş verərək redaktə edən, nömrəyə qoyan redaktorun da deyil, ümumilikdə, Çar Rusiyası mərkəzi hakimiyyətinin siyasətini əks etdirirdi. “Əkinçi” və onun redaktoru Həsən bəy Zərdabinin “Mşak”ın fəaliyyətindən azından xəbərdar idi və dəfələrlə erməni publisisti kəskin məzəmmət və tənqid etmişdi.

“Əkinçi”nin 8 oktyabr 1876-cı il tarixli nömrəsində azərbaycanlılar barədə xarakterik olmayan rəy formalaşdırmağa çalışan ermənidilli mətbu orqanın paylaşdığı xəbər olduğu kimi təqdim olunur: “Ermənilərin "Mşak" qəzetinə Axalkalak şəhərindən yazırlar ki, müsəlmanlar oğurluğu zurna-qabal ilə eləyirlər. Bir dəstə adam gəlin aparırıq deyibən gedib gələni soyur”.

“Əkinçi”nin nömrələrini vərəqlədikcə millətimizə atılan daşları, edilən iftiraları cavablandıran gənc redaktorun qəlbində püskürən etiraz açıq-aydın görünməklə bərabər, onun səbr ilə verdiyi cavablara heyrət etməyə bilmirsən. Belə cavabların biri qəzetin 17 fevral 1877-ci il tarixdəki sayında, Həsən bəyin yazdığı məqalədə belə təqdim edilir: “Bizim qəzetin 24-cü nömrəsində qurban bayramının əsl mətləbi barəsində yazılan daxiliyyəni Tiflis şəhərində erməni dilində çap olunan "Mşak" qəzeti erməni dilinə tərcümə eləbib, basdırıbdır. Heç görülübdür ki, bizim zəmanədə elm oxumuş adam xalqı Məkkəyə getməyə təhrik edə və ittihadi-islam fikrinə düşə və ittihadi-islam heç məqdurdurmu? Xülasə, bu tövr çox danışıb axırda deyir: neçə yüz ildir ki, İslam ətrafında olan erməni, gürcü və qeyri tayfaları güc ilə İslam edib və indi siz bu qədər tayfaları ittihadi-islam ilə birləşdirmək istəyirsiniz... Yox, qaytarın bizə ki, bizim zəmanə elm zəmanəsidir və biz elm sahibiyik və elm təhsil etməyə qabiliyyətiniz var. Bizim qardaşlarımız ki, keçmişdə onları cəbrən İslam eləmisiniz, verin bizə”.

Həsən bəy Zərdabi Arsruni kimi “ziyalıların”, “millətsevərlərin” xalqını hara qədər aparacağını görür və onların bu təşviqinin elmli kəslər üçün ayıb olduğunu qələmə alır: “Ey cənab Arsruni (zikr olan qəzetin münşisinin adıdır), əgərçi cənabınız doğru buyurursunuz ki, zəmanəmiz elm zəmanəsidir və bu halda ermənilər bizdən artıq elm təhsil etməyə rağibdirlər, amma neçə yüz ildir ki, biz ermənilər ilə qonşuluq edirik, indi cənabınıza eyb deyilmi ki, bizim aramızda ədavət salırsınız?!”

Zərdabinin 18 avqust 1877-ci il tarixli nömrəsində “Təzə xəbərlər” rubrikasında dərc etdirdiyi replikada bunu görmək mümkündür: “Mşak” qəzetinə Badkubədən yazırlar ki, bizim şəhərin erməniləri Üçkilsədə olan erməni patriarxına ərizə göndəriblər ki, cənab patriarx Rusiyada sakin olan ermənilərin adından padişahi-imperaturi-əzəmdən təvəqqe eləsin ki, Osmanlı dövlətinə tabe olan ermənilərin onlara olan zülmdən xilas etməkdən ötrü slavyan tayfasına alınan ixtiyarları onlar üçün də alsın və barədə "Mşak" qəzetindən iltimas ediblər ki, bu ərizəni çap edib, ermənilərə məlum eləsin ki, qeyri şəhərlərdə olan ermənilər də cənab patriarxa belə ərizə göndərsinlər”.

“Əkinçi” və onun yaradıcı heyəti, başda qəzetin redaktoru Həsən bəy Zərdabi olmaqla istər qəzetin nəşr olunduğu dövrlərdə, istərsə də qəzet maliyyə sıxıntısı səbəbindən çapını dayandırdığı zamanlardan sonrakı zamanlarda öz missiyalarını ömürlərinin sonuna qədər ləyaqətlə davam etdirdilər. Onlar atdıqları addımların dəyərinin illər keçəndən sonra veriləcəyinə o qədər əmin idilər bu əminliyə bütün zamanların oxucusunun heyrətlənməsi belə, heyratamiz görünür.

Onlar keçdikləri yolu belə xarakterizə edir və gələcək nəsillərin qarşısında əbədi öhdəliyi səsləndirirdilər: “Ey qardaşlar, rəva deyil ki, bircə qəzetimiz var ki, "Əkinçi" olsun, sizə “Əlif Leyla” dərsi desin. Bu halda müsəlman milləti tufana düşmüş təkidir ki, hər ləpə onların bir hissəsinin aparıb qərq edir.... Qardaşlarımızın qərq olmağına baxa-baxa inək irəlidən yediyi xörəyi köyşəyən kimi Rüstəm Zalın nağılını oxuyub keçmişdə olanların qüvvətilə fəxr edək və öz qərq olmağımıza əcl eyləməyək”.

***Mahirə HÜSEYNOVA,***
***ADPU-nun prorektoru,***
***Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, professor***

# Azərbaycan elmi və elmi mediası

**Bugünlərdə ölkəmizdə milli mətbuatımızın yaranmasının 150 illik yubileyi ümumxalq təntənəsi kimi qeyd edilir. Bu, səbəbsiz deyil. Azərbaycanda ilk anadilli qəzetin nəşr edilməsi təkcə jurnalistika tariximiz üçün deyil, ictimai fikrin milli oyanış və maariflənmə mərhələsinə qədəm qoymuası baxımından da taleyüklü hadisə sayılır.**

Azərbaycanda milli mətbuatın təməlinin 1875-ci ildə Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşrə başlayan “Əkinçi” qəzeti ilə qoyulması çoxminillik mədəni inkişaf tariximizdə yeni bir səhnin – jurnalistikanın ictimai fəaliyyət meydanına daxil olması ilə əlamətdar olub. Sonrakı illərdə milli ziyalılarımız bu yolu hədsiz çətinliklərə sinə gərməklə davam etdirərək “Ziya” - “Ziyayi-Qafqaziyə”, “Kəşkül”, “Şərqi-rus”, “Həyat”, “Molla Nəsrəddin”, “İrşad”, “Təzə həyat”, “Həqiqət”, “Açıq söz” kimi mədəni inkişafı, milli toparlanmanı, istiqlal məfkurəsini ərsəyə gətirən çoxsaylı qəzet-jurnallar buraxmışlar. Beləliklə XIX əsrin son rübündə ilk qəzeti işıq üzü görmüş Azərbaycan XX əsr milli mətbuatının inkişaf etdirən məmləkət kimi daxil olub.

Milli mətbuat tarixində ümummilli nəşrlərlə yanaşı, sahə və bölgə nəşrlərinin buraxılışı da önəmli yer tutur. Bu baxımdan elmi jurnalistikamız da yaranıb inkişaf edib, ölkəmizdə ziyalı nəşri kimi populyarlıq qazanıb. Azərbaycan elminin baş qərargahı və tədqiqat təsisatları şəbəkəsi olan Milli Elmlər Akademiyasının (AMEA) mətbuat xidməti və media resursları onilliklər boyu elmi biliklərin geniş kütlələrə çatdırılmasında, intellektual düşüncənin cəmiyyətə inteqrasiyasında və sahənin informasiya tələbatının ödənilməsində önəmli vəzifələr yerinə yetirib.

Hazırda AMEA-nın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi bu missiyanı yeni dövrün çağırışlarına uyğun şəkildə davam etdirir. Şöbə ölkədə elmi informasiya təminatının mühüm mərkəzlərindən birinə çevrilib və cəmiyyətin elmi məlumatlara çıxış imkanlarını daha da genişləndirməyə xidmət edir.

Yubileyə hazırlıq və onun yekun mərhələsində gündəmə gətirilən mövzulardan biri də ölkəmizdə mətbuatın inkişafına ulu öndər Heydər Əliyevin müstəsna diqqət və qayğı göstərməsi, bu siyasəti onun ənlayiqli varisi Prezident İlham Əliyevin yüksək səviyyədə davam etdirməsidir. Haqlı



olaraq vurğulanır ki, Ümummilli lider hakimiyyətdə olduğu hər iki dövrdə jurnalistikanın cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirmiş, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Prezident İlham Əliyevin milli medianın inkişafına göstərdiyi dövlət dəstəyi, çağdaş jurnalistikanın problemlərin həlli istiqamətində atdığı addımlar, imzaladığı fərman və sərəncamlar jurnalistlərimizin dövrün çağırışlarına uyğun fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Ölkə Prezidenti İlham Əliyevin milli medianın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq, Azərbaycan milli mətbuatının 150 illik yubileyinin geniş qeyd olunması haqqında sərəncam imzalaması jurnalistikamızı mədəni tariximizə, bugünümüzə və gələcək hədəflərimizə daha həssas və sayğılı bir duruma gətirib. Bununla əsryarımlıq milli jurnalistikamız bir daha xalqımıza hesabat verir, özünün məsul sabahlara qanadlandırır.

2025-ci il ölkəmizdə həm də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinin qeyd olunması ilə əlamətdardır. Həm AMEA-nın yubileyi, həm də milli mətbuatımızın 150 illiyi ölkəmizin intellektual və ictimai-mədəni inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Bunu nəzərə alan

Prezident İlham Əliyev bu il martın 18-də “Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında” da sərəncam imzalamışdır. AMEA-nın 80 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsini təmin etmək məqsədilə AMEA Rəyasət Heyətinin qərarı ilə komissiya yaradılmış və tədbirlər planı müəyyən edilmişdir.

Bu istiqamətdə qəbul edilən qərarlar AMEA-nın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin qarşısına da mühüm, daha məsuliyyətli vəzifələr qoymuşdur. Şöbəmiz dövri nəşrlər sektoru və elektron informasiya sektoru olmaqla, bir neçə istiqamətdə fəaliyyət göstərir. Burada AMEA-nın ölkə və beynəlxalq səviyyəli nüfuzlu elmi qurumlarla əməkdaşlığı və elm sahəsində birgə fəaliyyətin təşkili, Akademiyanın institut və təşkilatlarının ictimaiyyətlə əlaqələrinin qurulması, AMEA-nın ictimaiyyətlə və kütləvi informasiya vasitələri ilə münasibətlərinin təşkili, Akademiyanın tədbirlərində yerli və xarici KİV nümayəndələrinin iştirakının təmini istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu fəaliyyətlər çərçivəsində azərbaycançılıq ideologiyasının təbliği, milli-mənəvi dəyərlərin qorunması və dövlətçilik ənənələrinin yaşadılması da mühüm yer tutur.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin fəaliyyətinə xüsusi önəm verir, şöbənin həyata keçirdiyi tədbirləri daim diqqət mərkəzində saxlayır. AMEA prezidentinin bilavasitə rəhbərliyi ilə müasir dünya reallıqlarına və ölkə Prezidentinin çağırışlarına əsaslanan yeniləşmə prosesləri və islahatlar, humanitar və ictimai elmlər sahəsinin inkişafı istiqamətində əldə olunan nailiyyətlər, mühüm elmi nəticələr, Akademiyanın beynəlxalq əlaqələri və s. AMEA-nın media orqanları vasitəsilə hərtərəfli şəkildə işıqlandırılır, cəmiyyətdə böyük maraq doğurur.

Bundan başqa, AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli və qurumun digər rəhbər şəxslərinin mediada çıxışları, mətbuat konfransları, ictimaiyyətlə görüşlərini təşkil etmək, əlaqələndirmək, AMEA-nın prezidentinin, vitse-prezidentlərin, institut və müəssisə direktorlarının işgüzar xarakterli səfər və görüşlərini ictimaiyyətə çatdırmaq da şöbənin fəaliyyət istiqamətlərinə daxildir.

Azərbaycanın ilk veb-saytı olan science.gov.az isə 1995-ci ildən fəaliyyət göstərir. 30 yaşını qeyd edən science.gov.az ölkəmizdə elmi jurnalistikanın inkişafında müstəsna xidmət göstərib. Azərbaycan, rus və ingilis dillərində yayımlanan portal haqlı olaraq müasir dövrün elektron “Əkinçi”si hesab olunur. Ölkəmizdə elm sahəsində həyata keçirilən dövlət siyasətinin əsas informasiya mənbəyi kimi dövlətin elm sahəsindəki strateji siyasətini və


ELM НАУКА
Elmi nəşrlərinin fəaliyyəti təkmilləşdiriləcəkdir
Bir müəllifin izi ilə

bu istiqamətdə atılan mühüm addımları ictimaiyyətə ötürür. Burada AMEA-nın institut və təşkilatlarının fəaliyyətinə dair analitik məqalələr, mühüm elmi nəticələr, müxtəlif səpkili tədbirlər işıqlandırılır.

Bundan əlavə, İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi elmin təbliği istiqamətində müxtəlif multimedia imkanlarından istifadə edir. Şöbənin tabeliyində olan Yutub kanalı, Feysbuk səhifəsi, “X” platforması daim yenilənir, əhatə dairəsi genişləndirilir və beynəlxalq arenaya çıxış imkanları artırılır.

“Elm TV” vasitəsilə aparıcı alim və ziyalılar, gənc tədqiqatçılarla müsahibələr yayımlanır, onlar cəmiyyətə tanıdılır, mühüm elmi nəticələr və beynəlxalq əməkdaşlıq əlaqələrinə dair məlumatlar işıqlandırılır. İnteraktiv formatda təqdim olunan video-müsahibələr və elm sahəsində baş verən dəyişikliklərə dair hazırlanmış süjetlər, elmi bilikləri vizual və daha cəlbedici formada çatdırılmasına imkan yaradır. Bu da cəmiyyətin elmə marağının artırılmasına, elmi biliklərin geniş auditoriyaya təqdim olunmasına xidmət edir.

Hazırda şöbənin hazırladığı “Elm və həyat” elmi-populyar jurnalı isə 1961-ci ildə təsis olunub. Fəaliyyət göstərdiyi 65 il ərzində jurnal Azərbaycan elminin tanıdılmasında, elmi biliklərin geniş ictimaiyyətə çatdırılmasında böyük rol oynamışdır. Jurnal bu gün də Azərbaycanın tarixi, ədəbiyyatı, etnoqrafiyası, eyni zamanda fizika, kimya, astronomiya, kibernetika və s. elm sahələrinə aid yeni məlumatları, əldə edilmiş mühüm elmi nəticələri, dünya elmi yeniliklərini, müxtəlif elm sahələrinə aid tədqiqat materiallarını oxuculara təqdim edir.

AMEA Rəyasət Heyətinin həftəlik mətbu orqanı olan “Elm” (“Наука”, “Science”) qəzeti də nəşrə başladığı 1984-cü ildən elmin təbliği istiqamətində və elm ictimaiyyəti ilə cəmiyyət arasında intellektual körpü rolunu uğurla yerinə yetirir. Azərbaycan, rus və ingilis dillərində işıq üzü görən nəşrdə Akademiyanın müxtəlif institutlarında və elmi müəssisələrində əldə olunan elmi-tədqiqat nəticələri, ixtiralar və digər yeniliklər haqqında məlumatlar verilir. Görkəmli alimlərlə müsahibələr, onların elmi irsi və fəaliyyəti barədə məqalələr, eyni zamanda tanınmış alimlərin həyat və yaradıcılıq yolu ilə bağlı materiallar yer alır.

Azərbaycan mətbuatının 150 illik yubileyi ərəfəsində əminliklə deyə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasının mətbu orqanları da bu sahənin inkişafına əhəmiyyətli töhfələr verir. AMEA-nın mətbu nəşr və informasiya yayım fəaliyyəti təkcə elmin təbliği ilə məhdudlaşmır, eyni zamanda milli mətbuatın peşəkarlaşması, intellektual məzmunla zənginləşməsi və cəmiyyətin maariflənməsi istiqamətində mühüm rol oynayır. Bu mənada AMEA-nın media təmsilçiləri olaraq biz də milli mətbuatımızın yubileyini qürurla qeyd edirik.

Şöbəmizin əməkdaşlarından İlham Əliyev, Nərgiz Qəhrəmanova, Qaliyə Əliyeva, Nəzmin Cəfərova, Ruslan Kərimov, Sərvan Kərimov, Şamama Qəhrəmanova, Leyli Namiqqızı, Reyhan Məcidli, Aqil Məhərrəmov, Fərid Həşimov, Xaqani Rzaquliyev, AMEA-nın institut və təşkilatlarının ictimaiyyətlə əlaqələrə məsul şəxslərindən Vüsalə Rafiqqızı, Vüqar Məmmədov, Gülnar Səma, Sevda Mehrəliyeva, Mina İbrahimova, Zakir Muradov və başqaları bu gün Azərbaycanda elmi jurnalistikanın fəal nümayəndələri kimi tanınırlar.

AMEA-nın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsi olaraq bundan sonra da böyük inamla fəaliyyətimizi davam etdirmək, elmin təbliği, elmi biliklərin cəmiyyətə çatdırılması və elm ilə ictimaiyyət arasında sağlam informasiya körpüsünün qurulması istiqamətində səylərimizi daha da gücləndirmək əzmindəyik.

***Ağahüseyn ŞÜKÜROV,***
***AMEA-nın İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, dosent***

# Leyla Əliyeva "Məlhəm Hospital"da

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "Məlhəm Hospital"ı ziyarət edib.**



Ziyarətə tam avtomatlaşdırılmış, müasir standartlara cavab verən laboratoriya bölməsindən başlayan Leyla Əliyeva daha sonra Təcili Yardım Şöbəsinin fəaliyyəti ilə tanış olub. O, burada göstərilən xidmətlərin keyfiyyəti və operativliyi ilə maraqlanıb, həkimlərlə görüşüb.

Ziyarət zamanı Leyla Əliyeva Radiologiya şöbəsində də olub. Ona burada istifadəyə verilmiş son nəsil tomosintezli mammoqrafiya cihazı barədə ətraflı məlumat verilib. Bildirilib ki, beynəlxalq tədqiqatlara əsasən, 2031-ci ilə qədər hər 8 qadından birində süd vəzi xərçəngi riski ola bilər. Məhz bu səbəbdən "Məlhəm Hospital" tərəfindən ölkəyə qabaqcıl tibbi avadanlıqlar gətirilib və xəstəliklərin erkən mərhələdə aşkarlanmasına xüsusi önəm verilir.




Daha sonra Leyla Əliyeva ultrasonoqrafiya otağında uşaqlarda aparılan müayinələrlə tanış olub. Xüsusilə Daun sindromlu və digər spektrli uşaqların müayinəsi ilə maraqlanaraq bu sahədə ölkəmizdə görülən işlər haqqında məlumat alıb. Bildirilib ki, son illərdə Azərbaycanda yüksəktexnologiyalı avadanlıqlar və peşəkar mütəxəssislərin sayəsində skrininq müayinələri vaxtında aparılır, nəticədə spektrli və ağırdiaqnozlu doğuşların sayı nəzərəçarpacaq dərəcədə azalıb.

*XQ*

# Lənkəranın media tarixi

**Tanınmış tədqiqatçı jurnalist Hacı Etibar Əhədovun "Lənkəranın mətbuat salnaməsi" kitabını müəllifin və cənub bölgəsi ictimaiyyətinin milli mətbuatımızın 150 illik yubileyinə layiqli töhfəsi adlandırmaq olar.**

Hacı Etibar Əhədov yeni kitabını mənə hədiyyə edəndə 77 yaşlı qələm sahibinin 7 yaşlı uşaq kimi necə ürəkdən sevinirdiyinin şahidi oldum. Hər şeydən əvvəl deyim ki, Hacı Etibar Əhədov qələminə etibar edən və həm də etibar edilən söz adamıdır. Onun yazdığı silsilə kitablar cənub mədəniyyətinin, adət-ənənələrinin, Lənkəranın təhsil, səhiyyə, mədəniyyət və son tədqiqatında da tarixinin öyrənilməsində əvəzsiz mənbədir, salnamədir. "Lənkəranın mətbuat salnaməsi" də sanballı tədqiqat işidir.

Yeni kitabda isə Lənkəranda bölgə mətbuatının yaranması və inkişafından, müstəqillik dövründə qəzet və jurnalların nəşri tarixindən, Hacı Etibar Əhədovun təsisçi və baş redaktoru olduğu "Lənkəranın səsi" və "Aşkarlıq" müstəqil qəzetlərində istifadə edilmiş janr və forma zənginliyindən söz açılır. Redaktoru poliqrafçı alim, jurnalist Şəddat Cəfərov olan 5 bölümdən ibarət kitaba nəzəri, təcrübi məsələlərə həsr edilmiş materiallar, dostlarının müəllif haqqında xatirələri də toplanıb.

İlk bölmə "Milli mətbuatımızın Lənkəran nəşrləri" adlanır. Burada ötən XX əsrin ilk illərindən bu günümüzə kimi Lənkəranda çap olunmuş və hazırda da nəşr edilən jurnal və qəzetlər, orda çalışan jurnalistlər, çapxanalar və s. barədə arxiv sənədlərinə və qəzet nümunələrinə istinadən ətraflı məlumat verilir. II bölmə müstəqillik dövründə Lənkəranın ilk ictimai-siyasi qəzeti olan "Lənkəranın səsi" nin nəşr olunma tarixinə, bu nəşrin fəaliyyətə başladığı dönəmdə Lənkəran ictimai-siyasi-mədəni mühitində yaşanmış ən vacib hadisələrə, onun oynadığı rola həsr edilib. "Xatırladım ki, cəmi 7 nömrəsi çıxan bu qəzet Lənkəranın mətbuat tarixində iz qoymağı bacardı, həm də sonrakı müstəqil mətbu nəşrlərə vəsilə oldu.

Kitabın III bölümündə Hacı Etibar Əhədovun baş redaktoru olduğu, şəxsi vəsaiti ilə 30 il nəşr etdiyi "Aşkarlıq" qəzetinin salnaməsi əks etdirlib. Lənkəranın yazılı salnaməsinin bir parçası olan qəzetin nəşrini doğuran səbəblər, naşirin üzləşdiyi çətinliklər və s. barədə ətraflı məlumat almaq mümkündür. IV bölüm "Yaddaşımda yaşatdıqlarım", V bölüm isə "Jurnalistikada keçdiyim yol" adlanır. Bu bölümlərdə müəlliflə birgə bölgənin digər yazarları barədə də məlumat verilir, onların yaradıcılığından söz açılır. Sonuncu bölüm oxuculara həm də Hacı Etibar Əhədovu yaxından tanımağa imkan verir.

Bölgənin, rayonun çox işıqlı adamlarının həyatını kitablarında yaşadan, "Lənkəran" ensiklopediyasının və onlarla kitabın müəllifi olan tədqiqatçı jurnalistin oxucu ilə tet-a-tet söhbəti, maraq doğurur. "Mən, babam, bir də xatirəmdə yaşayanlar", "Mən də jurnalist oldum", "And olsun qələmə!", "Sizi deyib gəlmişdik, Mirzə!" başlıqları altında verilmiş xatirələr müəllifin iç dünyasının əksi olmaqla yanaşı, həm də yaşanan həyat həqiqətlərinin özəl rakursdan təhlili, jurnalistin hesabatıdır.




Son səhifədə Mirzə Cəlildən gətirilən sitatı Hacı Etibar Əhədovun özünə də aid etmək olar: "Məndən soruşsalar ki, dövlətdən, naz-nemətdən nəyin var, qürur hissi ilə deyərdim: - Bütün kainatı, yer üzünü təsvir və tərənnüm etməyə qadir sözüm, ana dilim var!".

Ölkə mətbuatının öyrənilməsi onun ayrı-ayrı qollarının tədqiqindən, bölgələrin, rayonların mətbuat tarixlərinin araşdırılaraq yazıya alınmasından keçir. Hacı Etibar Əhədovun yeni kitabı bu istiqamətdə imza atılan ilklərdəndir.

***Esmira İSMAYILOVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

# Gəncə Teatrı Tbilisidə "ən yaxşı"lardan oldu



**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gəncə Dövlət Milli Dram Teatrı Ozurqetidə Nodar Dumbadze Beynəlxalq Teatr Festivalında iştirak edib.**

"Nodar Dumbadze – gürcü ədəbiyyatı" adı altında on gün davam edən festivalda 15 gürcü teatr truppası ilə yanaşı, Azərbaycan, İspaniya, Özbəkistan, Qazaxıstan İsrail və Yunanıstan teatrları da qatılıb və tamaşaçılara 21 səhnə əsəri təqdim edilib. Qaliblərə 12 nominasiya üzrə xüsusi mükafatlar, diplomlar və hədiyyələr verilib.

Gəncə Dövlət Milli Dram Teatrı və Aleksandr Tsutsunava adına Ozurqeti Dövlət Dram Teatrının birgə layihəsi əsasında tamaşaçılara Nodar Dumbadzenin "Kukaraça" tamaşası təqdim olunub və festivalın "Ən yaxşı müştərək layihə" nominasiyası ilə təltif olunub. Müştərək layihənin bədii rəhbəri Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Aqil Bəhramlı, koordinatoru Gəncə Dövlət Milli Dram Teatrının aktyoru Yusif Cəfərov, tamaşanın quruluşçu rejissoru Gürcüstan respublikasının əməkdar incəsənət xadimi Vasili Ciqoqidze, quruluşçu rəssamı Lomqul Murusidzedir.

Gəncə Dövlət Dram Teatrının baş rejissoru Elşad Əhmədov deyib ki, biz beynəlxalq festivalda Azərbaycan mədəniyyətini, onun teatrını layiqincə təmsil edə bildiyimizə görə çox sevinirik.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**



Yeni nəşrlər

# "Yüz ilin ustadı"

**Bu adda kitab görkəmli alim, yorulmaz mətbuat tədqiqatçısı, professor Şirməmməd Hüseynovun anadan olmasının 100, eləcə də anadilli mətbuatımızın 150 illiyinə dəyərli töhfə sayılır.**

Kitabda unudulmaz pedaqoqun tələbələrinin qələmə aldıqları xatirə yazıları, Bakı Dövlət Universitetində keçirilmiş beynəlxalq elmi konfransın materialları, Milli Kitabxanada "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Şirməmməd Hüseynov. Biblioqrafiya" kitabının təqdimat mərasimindəki çıxışların mətnləri toplanıb.




Kitabda ümumilikdə 20 oçerkvari məqalə, təqdimatlardan 16 çıxış və yubiley tədbirləri haqqında geniş informasiyalar yer alıb. Xalq şairi Bəxtiyar Vahabzadə, akademik Rafael Hüseynov, professorlar Cahangir Məmmədli, Qulu Məhərrəmli, Vüqar Əliyev, Lalə Hüseynova, Kərim Tahirov, Əməkdar jurnalist Əflatun Amaşov, ədəbiyyatşünas alimlər Gülbəniz Babayeva, Əsəd Cahangir, "İki sahil" qəzetinin baş redaktoru, deputat Vüqar Rəhimzadə, eləcə də digər ünlü imzaların qədirbilənliklə yazıb-söylədiklərindən Şirməmməd müəllimin işıqlı obrazı, xarakter cizgiləri canlanır.

Kitab Bəxtiyar Vahabzadənin "Öz gözü ilə görüb, öz ağlı ilə düşünmək" adlı məqaləsi ilə başlanır. Böyük şairimizin yazısında jurnalistlərin ağsaqqalı sayılan Şirməmməd müəllimin üstün keyfiyyətlərinə nəzər salınıb, onun araşdırmaları təqdir edilib: "Şirməmməd Hüseynov Azərbaycanda sovet rejimi qurulana qədərki dövri mətbuatı böyük səbr və həssaslıqla izləmiş, iynə ilə gor qaza-qaza M.Ə.Rəsulzadə, Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadə, Üzeyir bəy Hacıbəyli və b. bu kimi böyük qələm sahiblərinin bu gün bizim üçün lazım olan fikir və mülahizələrini üzə çıxarmış, bu kitabı ilə oxucuya təqdim etmişdir... Bu yazıların hamısı onları üzə çıxarıb oxuculara təqdim edən müəllifin toxunulan məsələlər barədə ümumiləşdirici məqalələri ilə müşayiət olunur. Biz bu yazıları oxuduqca tarixin necə də təkrar olunduğunun və ən mühümü də başımıza gətirilən müsibətlərin bu qaynaqdan tuşlandığının şahidi oluruq".

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid yazır: "Dekabrın 17-də 100 illiyini qeyd edəcəyimiz, hər zaman yaddaşımızda canlı əfsanə kimi yaşayan professor Şirməmməd Hüseynovun həyat yolu əsl örnəkdir. O, dəyərlərə dəyişməz sadiqliyi, gördüyü işə sonsuz inamı, yorulmazlığı, əzmkarlığı, təmizliyi, saflığı, nikbinliyi, gözütoxluğu, müdrikliyi, ləyaqəti, mülayimliyi və hökmü ilə hamımıza "Belə yaşamaq mümkündür" nümunəsini göstərən əvəzsiz şəxsiyyət, düzlüyü, ədaləti, prinsipiallığı və xarizmasıyla mətbuatımızın gerçək tarixi siması idi. Şirməmməd Hüseynov elə bir irs qoyub gedib ki, bu, hər alimə nəsib olan səadət deyil. Onun ən böyük sərvəti araşdırmaları, tələbələri və yetirmələridir. Jurnalistlərin əvəzsiz müəllimi Şirməmməd Hüseynov həm də Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən nüfuzlu tədqiqatçısı idi".

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov isə xatirələr və şahidi olduğu ibrətamiz faktlar əsasında Şirməmməd müəllimi xarakterizə edir: "Onun ürəyində Vətən, millət, dövlət anlayışları – bunlar bir-birinə çox sıxlaşmışdı. Bu məfhumların heç biri bir-birindən üstün, yaxud da ki, aşağı səviyyədə deyildi, hamısı eyni, bərabər səviyyədə idi. Ona görə də Şirməmməd müəllim Xalq Cümhuriyyətinin qurucularının irsinə çox sayğı ilə baxırdı, çox hörmətlə yanaşırdı... Şirməmməd müəllim Prezident təqaüdü alırdı və o təqaüdlə Məhəmməd Əmin Rəsulzadənin beş cildliyini çap etməyə başladı. Mətbuat Şurasının sədri kimi, mən də cənab Prezidentə bir məktub yazdım ki, çox hörmətli müəllimimiz Şirməmməd Hüseynov M.Ə.Rəsulzadənin əsərlərini toplayıb, beşcildlikdir və bunu öz vəsaiti hesabına çap elətdirir. Yazdığım məktuba 2 gündən sonra cavab gəldi və Şirməmməd müəllimin həmin kitabları dövlət hesabına yenidən çap olundu"...

Özünün milli təəssübkeşlik duyğusu ilə əvəzedilməz olan Şirməmməd Hüseynov haqqında yazılmış bütün məqalələr, qeydlər və xatirələr bu cür konkret nümunələrlə zəngindir. Yeri gəlmişkən, son dövrlərdə "Xalq qəzeti"nin səhifələrində professor Şirməmməd Hüseynovun ömür və sənət yolu ilə bağlı getmiş bir neçə publisistika nümunəsi də kitaba daxil edilib. Bunlar əməkdaşlarımızın hazırladıqları "Milli məfkurə etalonu","Ustadın ömürlük sualı" adlı yazılar və Şirməmməd müəllimin həyat yoldaşı Ülkər Hüseynova ilə "Xatirələrdə yaşayan böyük müəllim" adlı müsahibədir. Həmin yazıların birində çox dəqiq olaraq qeyd edilir ki, milli mətbuatımızın 150 illiyi ərəfəsində ustad jurnalist Şirməmməd Hüseynovun 100 illik yubileyi əsl media təntənəsinə çevrilib.

"Yüz ilin ustadı" kitabının üzqabığında görkəmli araşdırmaçı-publisist, "qızıl əyarlı" böyük müəllim olan Şirməmməd Hüseynova məxsus aşağıdakı sitatlar layiqli yerini tutub: "...Xalqın başını uca edən, onu yaşadan, tərəqqi və təkamülünü istiqamətləndirən, mühafizə və müdafiəsini təşkil edən şəxsiyyətlər xalqın ən böyük dövlətidir...". "Müasirləşmək üçün əvvəl gərək özünə qayıdasan. Öz milli varlığını isbat edəsən ki, o kökdə müasirləşəsən. Yoxsa, Avropanı, Amerikanı təqlid etmək müasirləşmək deyil..." – Bu fikirlərin müəllifinin şəxsi nümunəsi onun dediklərinin ilk növbədə özü üçün həyat kredosu və sınanmış həqiqət olduğunu dönə-dönə göstərib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Milli mətbuatın yubileyinə musiqi töhfəsi



**Bakının Yasamal rayonunun Heydər Əliyev Mərkəzində "Bəhram Nəsibov yaradıcılığının təbliği" İctimai Birliyinin Azərbaycan Milli Mətbuatının 150 illiyinə həsr olunmuş film-konsertin təqdimatı keçirilib.**

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə icra edilmiş "Bəhram Nəsibov əsərlərdə" adlı layihədə bir neçə mövzunun vəhdətinə uğurla nail olinib. Milli mətbuatımızın yaranması, keçdiyi şərəfli yol, yetirdiyi şəxsiyyətlər, Ulu öndərin mediaya dəstəyi və bu dəstəyin bu gün də davam etdirilməsi layihədə geniş əksini tapıb. Həsən bəy Zərdabi həm maarifçi jurnalist, həm də təbiət elmləri üzrə mütəxəssis – torpaqşünas olduğu üçün film-konsertdə mətbuat və ekologiya mövzusu musiqi harmoniyasında özünün audiovizual ifadəsini tapıb.

Təqdimatda ictimai birliyin sədri Adil Nəsibov layihənin yaranma səbəbi və hazırlanması haqqında məlumat verib. Film-konsetdən fraqmentlər verilib. Kadrlarda "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşovun milli mətbuatımızın keçdiyi şərəfli yol, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri Amin Məmmədovun ölkəmizdə təbiəti mühafizə çərçivəsində aparılan yaşıllaşdırma işləri barədə verdikləri müsahibələr maraqla qarşılanıb. Milli Konservatoriyanın baş müəllimi, dirijor Aysel Bağırova isə film-konset üçün seçilmiş tematik mahnıları peşəkarlıqla təhlil edib.

Yasamal Rayon İcra Hakimiyyətinin şöbə müdiri Zöhrab Cəfərov film-konsertin ictimai əhəmiyyəti haqqında, "Xalq qəzeti"nin əməkdaşı Əli Nəcəfxanlı, "Carçı" jurnalının təsisçisi və baş redaktoru, Yasamal rayonu üzrə Qadınlar Cəmiyyətinin sədri Gülnarə Əmirquliyeva milli mətbuatımızın 150 illik şərəfli yolundan söz açıblar. Mərasimdə bəstəkar, şair, ifaçı Bəhram Nəsibovun mahnı və şeirləri səsləndirilib. Film-konsertdən respublika müğam müsabiqəsinin qalibi Nurlan Səfərovun ifasında "Əkinçi", Fövqəladə Hallar Nazirliyi Akademiyasının hərbi orkestrinin solisti Anar İlhamlının ifasında isə "Jurnalist ömrü" mahnılarının verilməsi tədbirə xüsusi rəng qatıb.

***XQ***

# BDU-nun mətbuatımızın yubileyinə töhfələri



**Ulu öndər Heydər Əliyevin "Azərbaycan xalqının milli sərvəti və milli iftixarı" kimi dəyərləndirdiyi Bakı Dövlət Universitetində son illərdə aparılan islahatlar və infrastruktur quruculuğu təhsilin keyfiyyətinin yüksəldilməsinə və elmi potensialın inkişafına əlverişli zəmin yaratmışdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) ilə imzalanmış əməkdaşlıq müqaviləsi birgə layihələrin gerçəkləşdirilməsini nəzərdə tutur.**

Ali məktəbin və iqtisadi təhlil mərkəzinin birgə hazırladığı "İctimaiyyətlə əlaqələrin əsasları" adlı dərs vəsaiti milli mətbuatın 150 illik yubileyinə töhfədir. Kitabın təqdimat mərasimində nəşrin redaktoru, İİTKM-in icraçı direktoru Vüsal Qasımlı bildirib ki, yubiley nəşri tələbə jurnalistlərlə yanaşı, dövlət və özəl qurumlarının ictimaiyyətlə əlaqələr sahəsində çalışan media mütəxəssisləri üçün də faydalı mənbədir.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev qeyd edib ki, rəhbərlik etdiyi ali məktəb ölkədə jurnalist kadrları hazırlayan əsas mərkəzdir. Son illər aparılan islahatlar nəticəsində jurnalistika fakültəsinin fəaliyyəti müasir texnologiyalara, yeni medianın tələblərinə uyğunlaşdırılıb. Artıq magistratura təhsilində ictimaiyyətlə əlaqələr adlı yeni ixtisas da açılıb. Təqdim edilən yeni dərs vəsaiti tədris prosesinin vacib elementi olmaqla yanaşı, informasiya cəmiyyətində uğur qazanmaq istəyənlər



üçün məlumat-bələdçi rolunu oynayacaq. Kitabın üstünlüklərindən biri də ictimaiyyətlə əlaqələr sahəsinin Azərbaycan reallığı ilə əlaqələndirilməsidir.

Təqdimatda yeni dərs vəsaiti, yubiley töhfəsi, birgə əməkdaşlığın ilk bəhrəsi və gərəkli ixtisas qaynağı kimi dəyərləndirilib. Mərasimdə Bakı Dövlət Universiteti ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi arasında əməkdaşlığa dair memorandum da imzalanıb.

Xatırladaq ki, Bakı Dövlət Universitetinin müxtəlif qurumlarla imzaladığı əməkdaşlıq müqavilələri əsasında aparılan işlər tələbələrə təcrübi bilgilər verir, onların gələcəkdə mütəxəssis kimi yetişməsinə yardımçı olur. 2022-ci ildə MEDİA, Audiovizual Şura və BDU arasında imzalanan əməkdaşlıq memorandumuna əsasən təşkil edilən təlimlər tələbələr üçün faydalı olub. Bu təlimlər MEDİA-nın jurnalistika fakültəsində qurduğu təlim otağında reallaşır.

ARB24 TV ilə imzalanan əməkdaşlıq müqaviləsinin də tədris prosesində əhəmiyyətli rolu var. Bu müqavilə əsasında yaradılan "NyusLab" təlim proqramı artıq 4 ildir tələbələrin həvəslə qatıldığı və auditoriyadan birbaşa jurnalist fəaliyyətinə başladıqları bir proqramdır.

Bakı Dövlət Universitetinin müvafiq qurumlarla bağladığı əməkdaşlıq müqavilələrinin mühüm üstünlüklərindən biri də tələbələrin yalnız nəzəri biliklərlə kifayətlənməməsi, eyni zamanda, praktiki bacarıqlara da yiyələnmələridir. Bu cür əməkdaşlıqlar tələbələrin peşəkar mühitlə tanış olmasına, bilik və bacarıqlarını real iş şəraitində tətbiq etməsinə şərait yaradır. Nəticə etibarilə, məzunlar əmək bazarına daha hazırlıqlı şəkildə daxil olurlar.

Ali məktəb rəhbərliyinin həyata keçirdiyi tədbirlər yalnız yubiley xarakterli təşəbbüslərlə məhdudlaşmır, həm də elmi-pedaqoji və maarifləndirici istiqamətdə davam etdirilir. Bu baxımdan "Milli mətbuat tarixi" adlı ixtisaslaşdırılmış auditoriyanın yaradılması və "Xalq qəzeti"nin debat otağı"nın fəaliyyətə başlaması xüsusi əhəmiyyət daşıyır. Hər iki təşəbbüs tələbələrin mətbuat tarixi üzrə biliklərini dərinləşdirməklə yanaşı, onlarda milli mətbuat irsinə hörmət və maraq formalaşdırır. Belə yaradıcı mühit tələbələrin tənqidi düşüncə, debat mədəniyyəti və peşəkar jurnalistika bacarıqlarının inkişafına şərait yaradır. Bütün bunlar BDU-nun milli mətbuatımızın yubileyinə layiqli töhfələri sayıla bilər.

***Aynur NƏSİROVA,***
***BDU-nun beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri***

# "Xoş gəlmisən, Azərbaycan əsgəri!"

## *Hərbi xidmətə məcburi köçkün kimi gedən İsmayıl Xocalıya sakin kimi qayıtdı*



**İyulun 8-də əsl sahiblərinin qayıdışı ilə yenidən dirçələn, gündən-günə gözəlləşən Xocalı rayonunun Ballıca kəndi daha bir sevinc həyəcanına şahidlik edirdi. Həyətləri şanlı bayrağımızla, onun rəngləri ilə bəzənmiş Hümbətovlar ailəsi həqiqi hərbi xidmətini başa vurub doğma Xocalıya qayıdan övladlarını qarşılamağa hazırlaşırdılar.**

O övladlarını ki, bir il əvvəl Vətənə borcunu vermək üçün ordu sıralarına yola salanda ailə üzvləri məcburi köçkün kimi Gəncə ətrafında məskunlaşmışdılar. Bu gün isə İsmayıl Hümbətov xidmətini bitirib daha Gəncədə müvəqqəti yaşadıqları qəsəbəyə deyil, ilk dəfə olaraq Ballıcadakı öz evlərinə dönürdü...

Kənd yeni sakini olan Azərbaycan əsgərini layiqincə qarşılamaq üçün səfərbər olmuşdu. Atası Kənan, anası Samirə, nənəsi, vətən uğrunda bir oğul şəhid vermiş Afinə ana, qonum-qonşular "Yaşa, Azərbaycan!" mahnısının sədaları altında İsmayılı gətirən maşını gözləyirdilər.

Nəhayət, ailə üçün oğul, oğul üçünsə doğma yurd həsrətin bitdiyini an yetişdi. Dövlət Sərhəd Xidmətinin Laçındakı "N" saylı hərbi hissəsində bir il ləyaqətlə vətənin keşiyində dayanmış, sərhədlərimizin mühafizəsi və müdafiəsi tapşırıqlarının icrası zamanı fərqləndiyi üçün təltif olunmuş kiçik çavuş İsmayıl Hümbətov ilk dəfə Ballıca torpağına ayaq basdı, sevdiklərinə sarıldı.

Biz də "Xalq qəzeti"nin Qarabağ bürosu olaraq sevinc göz yaşlarına hakim ola bilməyən valideynlərin, yaxınların duyğularına şərik olduq, təəssüratlarını soruşduq. İsmayılın nənəsi Afinə Hümbətova bildirdi ki, azad Qarabağda, Xocalıda əsgərliyini bitirib gələn nəvəni qarşılamaq çox böyük xoşbəxtlikdir:

– Biz bu torpaqların həsrətini çox çəkmişik. Allaha şükürlər olsun ki, bu gün möhtərəm Prezidentimizin sayəsində Xocalının havasını uduruq, suyunu içirik, doğma yurdumuza sahib çıxmışıq. Artıq kəndimizdə ilk körpələr dünyaya gəlir, oğul evləndirən, qız köçürən var, əsgər yola salıb, əsgər qarşılayırıq. Elimiz-obamız yenidən xoşbəxt günlərinə dönüb.

İsmayılın atası Kənan da sevincinin həddi-hüdudunun olmadığını dedi. Qeyd etdi ki, oğlunu məcburi köçkün olduğu vaxtda hərbi xidmətə yola salıb Xocalının daimi sakini kimi qarşılamaq inanılmaz bir hissdir. Şəhidlərimizin qanları bahasına azadlığına qovuşmuş bu torpaqlara sahib çıxmaq, erməni vandallığının qurbanına çevrilmiş yurd yerlərimizin inkişaf etdirilməsinin şahidi və iştirakçısı olmaq isə hər bir Vətən övladının müqəddəs borcudur.

Duyğulu anlarla dolu görüş başa çatar-çatmaz İsmayıl yeni evləri ilə tanış oldu. Bizimlə söhbətində də bildirdiyi kimi, dövlətimiz tərəfindən evlərində yaradılan şərait çox xoşuna gəlib:

– Fəxr edirəm ki, azad Laçında hərbi xidmətimi bitirib birbaşa azad Xocalıya gəldim. Bu, həqiqətən çox qürurvericidir! Yeni evimiz də çox gözəldir. Allah bizə bu günləri bəxş edən Ali Baş Komandanımızı qorusun, ordumuzu hər zaman müzəffər etsin! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Çox şükür, mən də bugündən ballıcalıyam.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**



# Baş Prokurorluqda media təmsilçiləri ilə görüş



**İyulun 18-də Milli Mətbuat Günü münasibətilə Azərbaycan Respublikasının Baş Prokurorluğunda media nümayəndələri ilə görüş keçirilib.**

Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Saleh Hacıyev çıxış edərək prokurorluq orqanları ilə media arasında düzgün, şəffaf və davamlı informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıb. O, mövcud əməkdaşlıq təcrübəsini qiymətləndirərək bu istiqamətdə qarşıda duran hədəfləri iştirakçıların diqqətinə çatdırıb.

Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, Kriminalistika və İnformasiya texnologiyaları idarəsinin rəisi Talıb Cəfərov, Milli.az xəbər portalının baş redaktoru Asif Mehman, Report İnformasiya Agentliyinin müxbiri Səlcuq Elçin və İctimai Televiziya və Radio Yayımları Şirkətinin müxbiri Valeh Dadaşov çıxış edərək, prokurorluq-media münasibətləri barədə öz fikirlərini bölüşüb, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün müxtəlif təkliflər irəli sürüblər.

# Gəncə alimləri jurnalistləri təbrik ediblər



**Gəncə Şəhər İcra Hakimiyyəti və AMEA-nın Gəncə Bölməsi "Əkinçi"dən sosial mediaya: Azərbaycan mətbuatının inkişaf yolu" mövzusunda dəyirmi masa keçirib. Tədbirə Gəncədə fəaliyyət göstərən elm ocaqlarını təmsil edən alim və tədqiqatçılar qatılıblar.**

Dəyirmi masanı giriş sözü ilə AMEA-nın Gəncə Bölməsinin sədri, bu elm ocağında nəşr olunan "Xəbərlər Məcmuəsi: Təbiət və texnika elmləri" jurnalının redaktoru, akademik Fuad Əlyev açaraq, "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il tarixli sərəncamının əhəmiyyətindən söz açıb.

Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçisi Sənubər Qocayeva şəhər ziyalılarının əlamətdar tarixlərə həsr olunan tədbirlərdə nümayiş etdirdikləri yüksək vətəndaşlıq mövqeyini təqdirəlayiq hal kimi dəyərləndirib.

Sonra dəyirmi masanın məruzələri dinlənilib. AMEA-nın Gəncə Bölməsinin elmi işlər üzrə sədr müavini, Bölmənin "Nizamişünaslıq" jurnalının redaktoru Əlimuxtar Muxtarov "44 Günlük Vətən müharibəsi və Azərbaycan mətbuatı", AR ETN Ekologiya və Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın Gəncə Bölməsinin "Xəbərlər Məcmuəsi: Təbiət və texnika elmləri" jurnalının məsul katibi Mahirə Şərifova "Həsən bəy Zərdabinin yaradıcılığında təbiət və ətraf mühit məsələlərinə baxış", AMEA-nın Gəncə Bölməsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Simuzər Qafarlı "Rəqəmsal media və inteqrasiya təhlükəsizliyi: çağırışlar və həllər", AMEA-nın Gəncə Bölməsinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Zakir Muradov "Həsən bəy Zərdabinin məsləkdaşı - Əsgər ağa Gorani", AR ETN Aqrar Problemlər İnstitutunun direktoru Sədaqət Adıgözəlova "Həsən bəy Zərdabinin aqrar problemlərə elmi yanaşması", AR ETN Nəbatat Bağının (Gəncə) direktoru Nizami Nağıyev "Ekologiyanın qorunmasında mətbuatın rolu", AMEA-nın Gəncə Bölməsinin YAP Gəncə şəhər 2 saylı Ərazi Partiya Təşkilatının sədri Vüsal Eminbəyli "Müstəqil Azərbaycan mətbuatının Heydər Əliyev dövründə intibahı" və AR ETN Bioresurslar İnstitutunun (Gəncə) direktor müavini Günel Tomuyeva "Azərbaycan Mətbuatı: 150 illik sözün gücü" mövzularında çıxış ediblər.

***H.QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**


## "Azərbaycan İlahiyyat İnstitutu

### *İslamşünaslıq kafedrasına müəllim vəzifəsinə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdimatı müddəti elan olunduğu gündən başlayaraq 30 gündür.

Müsabiqədə iştirak etmək istəyən şəxslər rektorun adına ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- kadrların şəxsi qeydiyyat vərəqəsi;
- tərcümeyi-hal;
- ali təhsil, elmi ad və elmi dərəcə haqqında sənədlərin surəti;
- dərc olunmuş elmi əsərlərin və məqalələrin təsdiq edilmiş siyahısı.

Əlavə məlumat üçün telefon- (+ 994 12) 436 - 77 - 66.

Ünvan – AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd Naxçıvani küçəsi 29.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 147 (30841) 19 iyul 2025-ci il, şənbə

## İDMAN

### Budapeştdə 2 gümüş medal

**Azərbaycanın iki güləşçisi Macarıstanın paytaxtı Budapeştdə təşkil olunan reytinq turnirinin ilk günündə gümüş medal qazanıblar. Yarışın ilk günündə sərbəst güləş üzrə millinin 3 üzvü xalçaya çıxıb.**

Onlardan ikisi - İslam Bazarqanov (57 kq) və Əli Rəhimzadə (65 kq) gümüş medal qazanıb. Kənan Heybətov (70 kq) isə ilk mərhələdə məğlub olub.

Qeyd edək ki, olimpiya mükafatçısı və Avropa çempionu Giorgi Meşvildişvili (125 kq) zədələndiyi üçün yarışda iştirak etməyib.

### “Formula 1”-ə hazırlıq davam edir



**“Mart ayından başlayan tikinti işləri əsasən pit və komanda binalarında qrafik üzrə davam etdirilir”. Bunu jurnalistlərə açıqlamasında Bakı Şəhər Halqasının tikinti şöbəsinin meneceri Sübhan Manafzadə “Formula 1” üzrə Azərbaycan Qran-prisinə hazırlıq çərçivəsində media-tur zamanı deyib.**

O, bir sıra yeniliklər olduğunu vurğulayıb: “Avqustda ümumi trekin tikinti işlərinə başlamağı planlaşdırıq. Nəqliyyatın hərəkətinə maneə yaratmamaq üçün vaxtı maksimum qısaltmağa çalışmışıq. Ümumilikdə, fərqli sahələr üzrə işlərə 1500-1700 insan cəlb olunub. Beton səddlərin 60 faizi yeni sistemlə əvəz olunub. Bu bizə imkan verəcək ki, trekin tikintisini ötənilkindən daha tez başa çatdıraq”.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 19-21-i aralığında baş tutacaq.

### “Qarabağ”ın oyununa biletlər satışdadır




**UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində iyulun 30-da keçiriləcək “Qarabağ” - “Şelburn” (İrlandiya) oyununun biletləri dünəndən etibarən satışa çıxarılıb.**

Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək matçın biletlərinin qiyməti müvafiq olaraq 5, 10, 20, 30, 75 və 100 manat təşkil edir. VVIP C və VVIP D sektorlara bilet alaraq, VIP Lounge üstünlüklərindən yararlanmaq istəyən azarkeşlər üçün biletlərin qiyməti isə 300 manatdır.

Biletləri “iTicket.az”-ın satış məntəqələri (iTicket.az-da onlayn satış); "Park Bulvar"dakı “Qarabağ” FK-nın Fan-Şopu və Tofiq Bəhramov adına Respublika Stadionunun kassalarından əldə etmək mümkündür.

*M.HACIXANLI*
*XQ*

## Həyat hikmətləri

# Bu dünyada yaxşılıqlar qalacaq...

**Kirpiyi ilə od götürən, daş üstündə gül bitirən, bağ bəsləyib bar gətirən babalarımız olub bizim. Tarixdə iz qoyan babalarımızı düşünəndə kəndimizdəki Dağbəyi baba gözlərim önünə gəlir həmişə.**



O, insanla insan, təbiətlə təbiət, quşla quş dilində danışırdı. Məqamında dediyi hər kəlmə, hər söz su kimi duru, dağ havası kimi təmiz, Vətən dili kimi diri idi. Zirvəli dağların təmiz havasını ciyərlərinə çəkə-çəkə, durna gözlü bulaqların suyundan içə-içə o dağ adamı kəndin yaddaşında “Dağ baba” kimi qalıb. Yerişi, duruşu, qartal baxışı ilə dağa bənzəyirdi. Adı özünə, özü də adına yaraşırdı Dağbəyi babanın. Ömründən qərinələr ötməsinə baxmayaraq, ürəyində arzuları azalmırdı. Qəddi-qaməti cavanlıq şaxlığını, həyat şuxluğunu itirməmişdi.

Dağbəyi babanın belə şux qalmasına səbəb yaylaqlar qoynunda mühit tapması, ömrünü-gününü at belində keçirməsi, içdiyi süd, yediyi bal- qaymaq idi. Dağbəyi baba ömrünün yeniyetməlik çağlarından taa 100-ü haqlayana kimi mal-heyvan saxlamaqla məşğul oldu. Şura hökumətinin vaxtında da kolxozun malabaxanı idi. Eldə özünə görə yaxşı ad almışdı. Hörmətli, qeyrətli və şöhrətli bir kişiydi.



Onun söz-söhbəti, öz sığalında elə duzlu-məzəli alınırdı ki... O, yaylaqdan enib elin yığnağına düşəndə onun söz-söhbətinə qulaq kəsilənlər çoxalırdı. Bir qış günü meşə ətəyində ocaq başında onun şirin söhbətinə qonaq olmuşdum. Üstündən illər ötsə də, Dağbəyi baba ilə olan söhbətimizi yaxşı xatırlayıram. Onun bu nizamda hasilə yetən söhbətini “Xalq qəzeti”nin oxucularına ərmağan edirəm:

– Dağbəyi baba, heç naxırçılıqdan bezdiyin vaxt olubmu? Yəni bu xasiyyətlə başqa sənətdə işləyə bilərdin?

– A dərdin alem, sənətin xasiyyətə nə ziyanı var? Mən ministr də olsaydım, bu xasiyyətdə qalasıydım. Yayı yaylaqda, qışı qışlaqda yaşayıram. Özümə başqa sənət seçsəydim, bəlkə belə şux qalmazdım. Bu dağlarda vəfalı qarımla günüm xoş keçdiyinə görə, iştahım da, kefim də həmişə yaxşı olur. Malım-atım il uzunu çöllərdədir. Heç canavardan da qısqanclığım yoxdur. Mal-heyvanımın keşiyini çəkən qanıq itlərim var.

... Bir il qış yaman sərt gəlmişdi. O qədər qar yağmışdı ki, yerimək mümkün deyildi. Amma qar üstündəki izləri görəndə bildim ki, bu, canavarın izidir. Bir də gördüm inəklər imrəndi. Sən demə, yalquzaq tövlənin həndəvərində imiş. İtlər canavarın hənirini aldılar-boğub öldürdülər.

Bu xəbər kəndə yayılanda bir imkanlı adam dedi ki, nə istəyirsən verim, bu itlərin birini mənə ver. Dedim ki, yox! Bu kənddə hamı mənim “yox” sözümə yaxşı bələddir. Bir dəfə kolxozun mal fermasında yeyinti olmuşdu. Əvəzini malabaxanlardan çıxmaq istəyirdilər. Yuxarıdan göstəriş gəlmişdi ki, malabaxanlar maaş cədvəlinə imza atsınlar, amma aylıq məvacibləri kolxozun nəfinə keçsin. Mən buna əvvəldən “yox” demişdim. Qərəz, naxırçıların hamısı maaş cədvəlinə qol çəkdilər, guya məvacibi aldılar. Növbə mənə çatanda öz adımın qabağına imza atmaq əvəzinə yekə bir “Yox” yazdım. Nə qədər minnət etdilər, hədə-qorxu gəldilər, xeyri olmadı. Dedim kişidə söz bir olar. Mənim o yeyintidən xəbərim yoxdur.

Bir dəfə kolxozun sədri istəyirdi ki, onun da danasını mal-qaramla birlikdə yaylağa aparım. Amma fermadakı yeyinti söhbətindən sonra bu işə qol qoymaq istəmirdim. Düşünürdüm ki, indi də bir danaya görə yaxam kolxoz sədrinin əlində qalacaq. Mallar örüşə gedəndə gördüm ki, sədrin danası naxıra heç yovuşmur. İnəklər kövşək vurub yeyirdi. Onun danası isə ota yaxın düşmürdü. Yazıq heyvanı anadan olandan tövlədə saxlayıb. Gün işığına həsrət qoymuşdu. Dedim ay sədr, sənin kor dananı yaylağa apara bilmərəm.

... Gərək mal-qaranı yaxşı saxlayasan ki, o da səni saxlasın. Bax, saxladığım mal-qaranın məhsulunu yeyirik, imkansızlara pay veririk. Pula ehtiyac olanda mal-heyvanın balasını satırıq. Oğul evləndiririk, qız köçürürük. Hələ onu demirəm ki, kəndin xeyirində-şərində neçə-neçə imkansıza əl tutmuşam. Əl tutmaq Əlidən qalıb. Gərək sağ əlin verdiyini sol əl bilməsin.

Son illər maldarlıqla məşğul olanlar mal-heyvanını satıb şəhərə köçürdülər. Mən bundan çox narahat olurdum. Düşünürdüm ki, yaylaqlarımız boşalanda yadlar gəlib yiyələnəcək. Sonra dedim ki, qoy köçən köçsün, özləri bilər, mən heç yana köçən deyiləm.

Öz təsərrüfatımı daha da böyütdüm. Bir hissəsini güneyli, bir hissəsini də qüzeyli dağlara ötürdüm. Bu yallar, yamaclar, biçənəklər hamısı mənə qaldı. İlin də elə vaxtıdır ki, çöl quşları, güllü biçənəklər adama gəl-gəl deyir. Bir müddətdən sonra eşitdim ki, şəhərə köçənlər kor-peşman geri qayıdıb. Özləri də boyunlarına aldılar ki, səhv ediblər. Naxırçının, çobanın şəhərdə nə işi var?! Onun məskəni yaylaqlardır. Təki ömür yolu yarıda qırılmasın. Naxırçı olmağın, çoban olmağın nəyi pisdi? Əsas məsələ insan olmaqdır.

Allaha şükür, təknədə çörəyim, dağarcıxda duzum bol. Canım sağlam, Allah verən ruzim bol. Övlad-uşaq, nəvə-nəticə də dörd yanımı bürüyüb. Sağolmuş törəmələrimin bəzilərinin adını və yaşını da unutmuşam.

Dağbəyi babanın xeyirxah əməllərini saymaqla qurtarmaz. Özündən sonra işıqlı əməlləri qaldı. Dağlarda məskən salan o nurani-pirani baba meşə zolağında bağ salıb, bulaq tikdirib. İndi Dağbəyi babanın yurdu el-obanın ziyarət yerinə çevrilib. Dağbəyi bulağından su içənlər ona rəhmət oxuyur.

Beləcə, insanın özündən sonra əməlləri ölçülür, biçilir. İnsan yaxşı əməlləri ilə seçilir. Həyat bir gün qaynayır, daşır. Bir gün də qaranlıqlaşır. Amma necə olsa da, işıqlı əməllər qalacaq. Bu dünyada yaxşılıqlar qalacaq...

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# Qazax Teatrı “Pusquda”n istirahətə

**Qazax Dövlət Dram Teatrı Əməkdar artist Xəzər Gəncəlinin türk yazıçı-dramaturq Cahit Atayın “Pusquda” pyesi əsasında quruluş verdiyi eyniadlı tamaşanın premyerası ilə 87-ci mövsümü başa vurub. Sənət ocağında növbəti teatr mövsümünün sona çatması münasibətilə toplantı keçirilib.**

Mərasimin aparıcısı, aktyor Yusif Qoca mövsüm ərzində teatrda görülən işlər, əldə edilən nailiyyətlər barədə məlumat verib.



Qazax Dövlət Dram Teatrının direktoru vəzifəsini icra edən rejissor Allahverdi Musayev çıxışında bildirib ki, teatr kollektivi yeni mövsümə daha böyük layihələr planlaşdırır, repertuar istər klassik, istərsə də müasir əsərlərlə zənginləşdiriləcək.

Qazax-Tovuz Regional Mədəniyyət İdarəsinin rəisi Səbuhi Xasməmmədov, Qazax Rayon İcra Hakimiyyətinin əməkdaşı Azad Hümbətov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Qazax rayon komitəsinin sədri İsgəndər Qurbanov və Qazax Dövlət Dram Teatrının baş rejissoru Musa Eyyubov kollektivi geridə qalan mövsümdə qazanılan uğurlar münasibətilə təbrik edib.

Sonra Qazax Dövlət Dram Teatrı və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə teatrın daxili işlərində fərqlənən əməkdaşların mükafatlandırma mərasimi keçirilib.

Tədbir teatrın aktyorları Nəsimi Aşbazov və Zəmanə Dərvişin təqdimatında musiqi nömrələri ilə başa çatıb.

*XQ*

## Hava

# Həftəsonu daha isti...



**İyulun 23-dək temperatur rejimində mühüm dəyişiklik gözlənilmir. Bu barədə Milli Hidrometeorologiya Xidməti məlumat yayıb.**

Qeyd olunub ki, ötən günlərdə olduğu kimi, havanın maksimal temperaturunun Bakıda və Abşeron yarımadasında 35-40°-yə yaxın, Naxçıvan MR-da, eyni zamanda Aran rayonlarında 36-40, bəzi yerlərdə 41° dərəcəyədək, dağlıq rayonlarda isə 33 dərəcəyədək isti olacağı gözlənilir.

*XQ*

*✓ “AKSİOM” MMC-nin Azərbaycan Respublikasındakı filialı ləğv edildiyini bildirir. Kreditorlar öz tələblərini 60 gün müddətində Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti 187 B, 115 nömrəli ünvana bildirə bilərlər. VÖEN – 1506409941.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3246
SİFARİŞ 1645
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00